RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 256 (8849) CÜMƏ, 26 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dövlətin etibarlı sosial müdafiə siyasəti

## Elmi əməkdaşlıq sahəsində əlaqələrin perspektivləri müzakirə olunub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu və əlaqələrimizin inkişafında humanitar sferada, o cümlədən elmi sahədə əməkdaşlığın rolu vurğulandı. Bu sahədə əməkdaşlığımızın zəngin tarixə malik olduğu bildirildi və müasir dövrdə bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəminə toxunuldu. Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin səfərinin elmi əməkdaşlıq sahəsində əlaqələrin perspektivlərinin müzakirəsinə və daha da genişləndirilməsinə töhfə verəcəyi qeyd edildi.

Aleksandr Sergeyev Rusiya Elmlər Akademiyasının xatirə medalını Prezident İlham Əliyevə təqdim etdi.

## Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Kemerovo vilayətində "Listvyajnaya" kömür şaxtasında fövqəladə hadisə nəticəsində insanların həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verirəm, zərərçəkənlərin hamısının tezliklə sağalmalarını arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 25 noyabr 2021-ci il*

## İlham Əliyevin yeni inkişaf strategiyası postmüharibə dövrünün şərtlərinə uyğun hazırlanıb

Dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsinin təşkili və daxili siyasətin sosialyönümlüyünün ön planda saxlanılmasıdır.

Həyata keçirdiyi məqsədyönlü, uzaqgörən siyasəti ilə Azərbaycanı bütün çətin sınaqlardan uğurla çıxaran Prezident İlham Əliyev ölkədə makroiqtisadi sabitliyin qorunması və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində hər zaman ciddi addımlar atır. Bunu qlobal pandemiya ilə mübarizə dövründə Prezidentin hazırladığı sosial-iqtisadi dəstək paketi də bir daha təsdiqlədi.

### Böhran şəraitində ən böyük iqtisadi dəstək proqramı

Son 18 ildə Azərbaycanda bu istiqamətdə həyata keçirilən dövlət siyasəti göz önündədir. İlham Əliyev məhz pandemiya ilə mübarizə zamanı, yəni dünya iqtisadiyyatının tənəzzülü dövründə də xalqın sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atdı.

Böhran şəraitində əhalinin sosial rifah halının yüksəldilməsi - vətəndaşların əməkhaqları və pensiya təminatının yaxşılaşdırılması, işsizlik probleminin aradan qaldırılması, paytaxtda və bölgələrdə müasir sosial infrastrukturun yaradılması prioritet olaraq qaldı. Heç bir sosial layihə təxirə salınmadı.

Maliyyə həcmi 3 milyard manat olan bu sənəd müstəqillik tariximizin ən böyük iqtisadi dəstək proqramı adlandırıldı. Prezidentin ən böyük sosial-iqtisadi paketi çərçivəsində hazırlanan dövlət dəstəyi proqramlarına əsasən, karantin dövründə əhalinin sosial müdafiəsinin təminatı sahəsində mühüm addımlar atıldı. Məhz bu proqramlarda nəzərdə tutulan məşğulluq və sosial rifaha dəstək tədbirləri 5 milyon nəfəri əhatə etdi. Dövlət sektorunda çalışan 900 min nəfərin, özəl sekorda isə 760 min nəfərin iş yeri və əməkhaqları qorundu. Sahibkarlıq subyektlərinə böyük güzəştlər edildi.

*Ardı 2-ci səh.*

## Şuşa şəhərinin ərazisində reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin siyahısı təsdiq edilib

Şuşa şəhərinin ərazisində reklam qurğularının yerləşdirilməsi qadağan edilən abidələrin siyahısı təsdiq edilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nazirlər Kabinetinin bununla bağlı Qərarı "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasını təmin etmək məqsədilə hazırlanıb.

Nazirlər Kabineti tərəfindən müvafiq qərarın qəbul edilməsi Şuşa şəhəri ərazisindəki tarix-mədəniyyət abidələrinin qorunması, salamatlığının təmin edilməsi, quruluşuna xələl gətirilməməsi və gələcək nəsillərə olduğu kimi çatdırılmasına hüquqi zəmin yaradır, həmçinin ərazidə qoruq rejiminin tətbiqinə imkan verir. Bununla Şuşa şəhərinin tarix və mədəniyyət abidələrinin dövlət tərəfindən mühafizəsi gücləndirilir.

## Ermənistanın öhdəliklərini yerinə yetirməkdən başqa yolu yoxdur

İkinci Qarabağ savaşında ordusu Azərbaycan tərəfindən darmadağın edilən, işğal siyasətinə son qoyulan Ermənistan üçtərəfli Bəyanata - kapitulyasiya aktına imza atmağa məcbur edildi.

Prezident İlham Əliyevin şərtləri əsasında ərsəyə gələn bəyanatla məğlubiyyəti siyasi-hüquqi müstəvidə təsdiq olunan Ermənistan üzərinə öhdəliklər götürüb.

İmzalanmasından sonra bəyanatın müddəalarının bir qismi yerinə yetirilib. İşğalçı ordunun qalıqları Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk edib, atəşkəsə nəzarət üzrə mərkəz yaradılıb, hərbi əsirlərin, girovların, cəsədlərin mübadiləsi həyata keçirilib. Bəyanatın 9-cu bəndində yazılır ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir və Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Həmçinin qeyd olunur ki, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin edilməlidir.

Qeyd edək ki, Zəngəzur dəhlizinin yaradılması, respublikamızın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat kommunikasiyasının təmin olunması hələ illər öncədən Azərbaycanın milli maraqları sırasında yer alır. Hələ 2009-cu ildə Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşündə Azərbaycanın tarixi torpağı olan Zəngəzur bölgəsinin vaxtilə Azərbaycandan alınıb Ermənistana birləşdirilməsinin böyük türk dünyasını coğrafi baxımdan parçaladığını deyən İlham Əliyev bildirmişdi ki, qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk.

İlham Əliyev 12 il əvvəl bu sözləri təsadüfən deməmişdi. Çünki Prezident düşünülmüş və uzaqgörən siyasəti ilə Azərbaycanı zəfərə aparırdı. İkinci Qarabağ müharibəsindəki qələbə ilə İlham Əliyev respublikamızın bu milli marağının həyatda reallaşması, həm də bütün türk dövlətlərinin daha da yaxınlaşmasına xidmət edən bir missiyanın yerinə yetirilməsi üçün tarixi şərait formalaşdırdı.

Üçtərəfli Bəyanatda yer alan məsələlər, xüsusən Zəngəzur dəhlizinin açılması Ermənistan üçün də sərfəlidir. Son onilliklərdə region ölkələrinin inkişaf etdiyi bir şəraitdə demək olar ki, yerində sayan, Qafqazın bütün layihələrindən kənarda saxlanılan Ermənistanın sosial-iqtisadi vəziyyəti 44 günlük müharibədən sonra daha da ağırlaşıb.

*Ardı 4-cü səh.*

## Azərbaycan «yaşıl enerji» sahəsində beynəlxalq əməkdaşlığını genişləndirir

### Dünyanın tanınmış şirkətlərinin bu sahədəki layihələrimizə marağı artır

Bərpaolunan enerjidən istifadə getdikcə bütün dünyada özünə daha geniş yer alır. Beynəlxalq Enerji Agentliyinin bildirdiyinə görə, dünyanın enerji sistemi "xalis sıfır" emissiyalar cığırı ilə irəliləyərsə, əsrin ortasında elektrik enerjisi istehsalının 90 faizə qədəri bərpaolunan enerji mənbələrinin payına düşər. Bunun da 70 faizi günəş və külək enerjisi mənbələrindən alınar. Azərbaycanda da bu məsələyə xüsusi diqqət yetirilir və ölkəmizdə bərpaolunan enerji sahəsinin inkişafı üçün əlverişli şərait var.

*Bax: səh. 6*



## "Təhlükə hələ sovuşmayıb"

### Ümumdünya Səhiyyə Təşkilatı növbəti dəfə dünya ölkələrinə xəbərdarlıq etdi

Avropada hazırkı epidemioloji tendensiyaların qorunub-saxlanması 2022-ci ilin yazında yeni tipli koronavirusla bağlı yaranan fəsadlardan daha yarım milyon insanın həyatına son qoya bilər.

Bu barədə məlumat verən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa bölməsinin icraçı direktoru Robb Batlerin dediyinə görə, ölüm hallarının sayı artıq 1,5 milyon rəqəmini aşıb: "Əgər biz əvvəlki xətti davam etdirsək, gələn ilin yazında daha 500 min ölüm proqnozlaşdıra bilərik".

*Bax: səh. 8*



## Qiymətlər bahalaşır...

Əvvəllər qiymət artımları ilə, adətən, bayramlar ərəfəsində rastlaşırdıqsa, indi bu artımlar hər ay, bir sıra məhsullarda isə demək olar ki, hər həftə, hətta hər gün baş verir. Bunun nəticəsidir ki, son aylar ərzində Azərbaycanda həm ərzaq, həm də qeyri-ərzaq məhsullarının qiymətlərində artım müşahidə edilir.

*Bax: səh. 6*

### Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti isə hələ ki araşdırma aparır

# "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600; 2018, № 7 (I kitab), maddə 1396, № 12 (I kitab), maddə 2513; 2019, № 5, maddə 809; 2020, № 4, maddə 384) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.0.8-1-ci maddə əlavə edilsin:

"1.0.8-1. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (bundan sonra - toplu) - qəbul edilmiş Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin aktlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının dərc edildiyi aylıq rəsmi toplu;".

2. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.2. Normativ-hüquqi aktların kolliziyasına yol verməmək məqsədilə qanun layihələri ilə yanaşı, onların qəbul olunması ilə əlaqədar ləğv, dəyişiklər edilməli və hazırlanmalı olan qanun layihələri də eyni zamanda təqdim edilməlidir. Azərbaycan Respublikasının Prezidentinə təqdim olunan qanun və Azərbaycan Respublikası Prezidentinin fərmanlarının layihələri ilə yanaşı, onların qəbul edilməsi ilə əlaqədar ləğv və dəyişikliklər edilməli və hazırlanmalı olan Azərbaycan Respublikası Prezidentinin aktlarının layihələri də eyni zamanda təqdim olunmalı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının (onların struktur elementlərinin) siyahısı müəyyən edilməlidir.".

3. 19-cu maddə üzrə:

3.1. 19.1-ci maddədə "və onların icrası" sözləri ", Azərbaycan Respublikası Konstitusiyasının, referendum aktının, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının icrasını təmin etmək" sözləri ilə əvəz edilsin;

3.2. 19.4-cü maddədə "həmin aktın icrası" sözləri "bu Konstitusiya Qanununun 19.1-ci maddəsində göstərilən aktların icrasını təmin etmək" sözləri ilə əvəz edilsin.

4. 20-ci maddə üzrə:

4.1. 20.1-ci maddədə "aktları ilə nəzərdə tutulmuş hallarda və hədlərdə" sözləri "aktına, habelə Azərbaycan Respublikası Konstitusiyasından, referendum aktından, Azərbaycan Respublikası qanunlarından və Azərbaycan Respublikası Prezidentinin aktlarından irəli gəldiyi halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktına əsasən" sözləri ilə əvəz edilsin;

4.2. 20.4-cü maddədə "istinad etdiyi Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli və həmin aktın icrası" sözləri "qəbulu üçün bu Konstitusiya Qanununun 20.1-ci maddəsinə uyğun olaraq əsas olmuş akt göstərilməli və həmin aktın icrasını təmin etmək" sözləri ilə əvəz edilsin.

5. 48-ci maddə üzrə:

5.1. 48.2.1-ci maddəyə "müşayiət məktubu" sözlərindən sonra ", normativ-hüquqi aktın layihəsinin uyğunluğunun təmini haqqında arayış (müvafiq layihələr əlavə olunmaqla (olduğu halda))" sözləri əlavə edilsin;

5.2. 48.3.4-cü maddədə "normativ-hüquqi aktların" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının və mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 75.3-cü, 76.4-cü və 76.5-ci maddələr əlavə edilsin:

"75.3. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarında dəyişiklik edilən zaman dəyişikliyi nəzərdə tutan normativ-hüquqi aktın mətnində mötərizədə, dəyişiklik edilən normativ-hüquqi aktın dərc edildiyi, habelə ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla göstərilir.";

"76.4. Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin aktları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ləğv edilən zaman onların ləğv edilməsinə dair normativ-hüquqi aktın mətnində mötərizədə ləğv edilən normativ-hüquqi aktın dərc edildiyi, ona əvvəllər edilmiş dəyişiklikləri əks etdirən topluların (külliyyatların) illəri, nömrələri (kitabları) və maddələri ardıcıllıqla göstərilməklə verilir.

76.5. Bu Konstitusiya Qanununun 76.4-cü maddəsinə uyğun olaraq ləğv edilən normativ-hüquqi aktla yanaşı, onun ləğv edilməsinə dair normativ-hüquqi aktın mətnində göstərilən toplulara (külliyyatlara) uyğun olaraq ona əvvəllər edilmiş dəyişiklikləri nəzərdə tutan normativ-hüquqi akt və ya onun müvafiq struktur elementi də ləğv edilmiş hesab edilir. Bu qayda bir neçə normativ-hüquqi akta dəyişikliyi nəzərdə tutan normativ-hüquqi aktlara münasibətdə də tətbiq edilir. Bu zaman onların adında və mətnində həmin dəyişikliyə dair müddəalar ləğv edilmiş hesab edilir.".

7. 77-ci maddə ləğv edilsin.

8. 82.2-ci maddə üzrə:

8.1. birinci cümləyə ikinci halda "dərc edilməsi" sözlərindən sonra ", rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi" sözləri əlavə edilsin;

8.2. ikinci cümləyə "edilməsini" sözündən sonra "və rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsini" sözləri əlavə edilsin.

9. 89-cu maddə üzrə:

9.1. "89.0.", "89.0.1.", "89.0.2." və "89.0.3." rəqəmləri müvafiq olaraq "89.1.", "89.1.1.", "89.1.2." və "89.1.3." rəqəmləri ilə əvəz edilsin;

9.2. 89.1.2-ci maddəyə "Konstitusiyası" sözündən sonra ", bu Konstitusiya Qanunu" sözləri əlavə edilsin;

9.3. aşağıdakı məzmunda 89.2-ci maddə əlavə edilsin:

"89.2. Bu Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq normativ-hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ-hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir.".

10. Bu Konstitusiya Qanununa 1 nömrəli Əlavə - "Normativ-hüquqi aktın layihəsinin, qanunun məcburi hüquqi ekspertizası rəyinin strukturu"nun 13-cü və 14-cü maddələrində "normativ-hüquqi aktların" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# Azərbaycan ilə Rusiya arasında humanitar əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev noyabrın 25-də Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə dostluq və mehriban qonşuluq təməlləri üzərində qurulmuş Azərbaycan-Rusiya əməkdaşlığının strateji tərəfdaşlıq səviyyəsində hərtərəfli inkişafında iki ölkənin dövlət başçılarının xüsusi rolu vurğulanıb.

İkitərəfli münasibətlərin mühüm istiqamətlərindən biri olan humanitar sahənin əhəmiyyəti qeyd olunub və bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair qarşılıqlı niyyət bir daha ifadə edilib.

Görüşdə humanitar əlaqələrin vacib tərkib hissəsi olan mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub və bu sahədə birgə tədbirlərin keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycanda rus dilinə və rus mədəniyyətinə dövlət səviyyəsində göstərilən diqqət və qayğı yüksək qiymətləndirilib, ölkəmizdə təhsilin rus dilində aparıldığı 340-dan çox məktəbin fəaliyyət göstərdiyi qeyd olunub.

COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əlaqələrin davam etməsi məmnunluqla vurğulanıb.

Söhbət zamanı həmçinin diaspor və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 61.3-cü maddəyə "işsizlikdən sığorta haqları" sözlərindən sonra ", habelə icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları" sözləri əlavə edilsin;

1.2. 965.2.3-cü maddəyə "dövlət fonduna" sözlərindən sonra ", icbari tibbi sığorta haqları üzrə icbari tibbi sığorta fonduna" sözləri əlavə edilsin.

**Maddə 2.** "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 460; 2001, № 1, maddə 25, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2006, № 3, maddə 225; 2007, № 5, maddə 401; 2008, № 5, maddə 348; 2010, № 4, maddə 276; 2015, № 4, maddə 355, № 11, maddə 1260; 2017, № 3, maddə 332, № 5, maddə 736; 2018, № 4, maddə 652, № 12 (I kitab), maddə 2529; 2019, № 1, maddə 28, № 4, maddə 600, № 6, maddə 993; 2020, № 5, maddə 515, № 12 (I kitab), maddə 1453) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 35-ci maddənin 5-ci hissəsində "və işsizlikdən" sözləri ", işsizlikdən sığorta haqları və icbari tibbi" sözləri ilə əvəz edilsin;

2.2. 41-1-ci maddənin 4-cü hissəsinin "ç" bəndinə və 53-cü maddənin 1-ci hissəsinin "ç" bəndinin ikinci abzasına "dövlət fonduna" sözlərindən sonra ", icbari tibbi sığorta haqları üzrə icbari tibbi sığorta fonduna" sözləri əlavə edilsin.

**Maddə 3.** "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7, maddə 591; 2011, № 6, maddə 482, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494; 2015, № 12, maddə 1434; 2016, № 12, maddə 2050; 2017, № 2, maddə 156, № 6, maddə 1056, № 8, maddə 1511; 2018, № 2, maddə 151, № 5, maddələr 853, 867, № 7 (I kitab), maddə 1424, № 8, maddə 1674, № 12 (I kitab), maddə 2528; 2019, № 1, maddə 21, № 2, maddə 203, № 6, maddə 999; 2020, № 7, maddələr 828, 856; 2021, № 4, maddə 312) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 75.4-cü maddədə "sosial sığorta və sosial müdafiə fondlarına ayırmalar" sözləri "məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları üzrə büdcədənkənar dövlət fonduna, habelə icbari tibbi sığorta haqları üzrə icbari tibbi sığorta fonduna ödənişlər" sözləri ilə əvəz edilsin;

3.2. 75.5-ci maddədə "ayırmalar" sözü "ödənişlər" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8) 82.1.7-ci maddəsinə "vergilər," sözündən sonra "büdcədənkənar dövlət fonduna" sözləri və "işsizlikdən sığorta haqları üzrə" sözlərindən sonra ", habelə icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə" sözləri əlavə edilsin.

**Maddə 5.** "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 75; 2017, № 1, maddə 9; 2018, № 12 (I kitab), maddə 2479; 2019, № 12, maddə 1882) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 19.1-ci maddənin ikinci cümləsində "sosial sığorta ayrılmalarının" sözləri "əməkhaqqından tutulmaların (əməyin ödənişi fondundan hesablanan məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı, icbari tibbi sığorta haqqı, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqı)" sözləri ilə əvəz edilsin;

5.2. 21.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"21.3. Teatr işçiləri "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta", "Tibbi sığorta" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta, icbari tibbi sığorta və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunurlar.".

**Maddə 6.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12 (I kitab), maddə 2221; 2018, № 7 (I kitab), maddə 1392; 2019, № 1, maddələr 19, 33, 50, № 5, maddələr 793, 815, № 6, maddə 999, № 8, maddə 1362; 2020, № 7, maddələr 822, 830; 2021, № 6 (I kitab), maddə 558) 119.1.7-ci maddəsində "və dövlət büdcəsi ilə bağlı" sözləri ", habelə "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta", "Tibbi sığorta" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 209; 2010, № 4, maddə 276; 2014, № 11, maddə 1349; 2020, № 5, maddə 515) 8.1.1-ci maddəsində "haqlarının" sözü "haqlarının, icbari tibbi sığorta haqlarının" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1, № 5, maddə 521, № 7, maddə 831, № 9, maddə 1136; 2021, № 2, maddə 113, № 7, maddələr 700, 708) 25.2-ci maddəsinə "işsizlikdən sığorta haqqı," sözlərindən sonra "icbari tibbi sığorta haqqı və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

# Dövlətin etibarlı sosial müdafiə siyasəti

## İlham Əliyevin yeni inkişaf strategiyası postmüharibə dövrünün şərtlərinə uyğun hazırlanıb

*Əvvəli 1-ci səh.*

İşsiz vətəndaşlara hər ay ödənilən 190 manatlıq birdəfəlik müavinətlər, ümumilikdə, 333 milyon manat təşkil etdi. 85 min ailəyə, aylıq orta məbləği 225 manat olmaqla ünvanlı sosial yardım verildi. Beləliklə iqtisadiyyatdakı tənəzzülə baxmayaraq, cənab İlham Əliyevin təxirə salmadan reallaşdırdığı sosial layihələr bir daha Azərbaycanın həm də sosial dövlət olduğunu təsdiqlədi.

### Büdcədə sosial xərclərin payı 46,5 faizə çatdırılır

Azərbaycanda əhalinin sosial müdafiəsinə göstərilən diqqət hər il dövlət büdcəsində də öz əksini tapır. Hər il dövlət büdcəsində sosial yönümlü xərclər artırılır. 2022-ci ilin büdcəsi də Azərbaycan reallığı nəzərə alınmaqla hazırlanıb. Bu büdcənin sosialyönümlü olması bir daha göstərir ki, dövlətin əsas məqsədi xalqın rifahının yaxşılaşdırılmasıdır.

Milli Məclisdə gələn ili dövlət büdcəsinin və büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi aparılıb. Məlum olub ki, "Zəfər büdcəsi" adlandırılan dövlətin ali maliyyə sənədi müstəqillik tariximizin ən böyük büdcəsidir.

Hər zaman olduğu kimi, 2022-ci ilin dövlət büdcəsi də sosialyönümlüdür. Sosialyönümlü büdcə o büdcədir ki, onda sosial bölmələr üzrə xərclərin payının əhəmiyyətli çəkisi olur. Dünya praktikasında sosial xərclərin payı 40 faizdən az deyil. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, sosial xərclər dedikdə bura təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət və digər sosial əhəmiyyətli sahələr daxildir.

Bir tərəfdən, qlobal pandemiya ilə mübarizə tədbirlərinin davam etməsi, digər tərəfdən, İkinci Qarabağ müharibəsinin yaratdığl sosial-iqtisadi çətinliklərə baxmayaraq, büdcədə sosial xərclərin payı 46,5 faizə catdırılacaq və bu 2021-ci ilə nisbətən 13,5 faiz və ya 1 milyard 650 milyon manat artım deməkdir. Təhsil sahəsinə 3 milyard 884 milyon, səhiyyəyə icbari sığorta öhdəlikləri də nəzərə alınmaqla 1 milyard 789 milyon manatın ayrılması proqnozlaşdırılır.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2022-ci ilin dövlət büdcəsində gələn il yanvarın 1-dən əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin və digər sosial ödənişlərin artırılması üçün 1 milyard 440 milyon manat məbləğində müvafiq maliyyə təminatı yaradılıb.

Növbəti ildə büdcədən maliyyələşən təşkilatlar üzrə gəlirlərin artım tempi 25 faiz, qeyri-büdcə sektorunda isə 14,5 faiz təşkil edəcək. Gəlirlərin artımı orta aylıq əməkhaqqının artımı ilə şərtləndirilir. Orta aylıq əməkhaqqının cari ilin sonuna 742 manat təşkil edəcəyi, növbəti ildə isə 65 manat və ya 8,7 faiz artaraq 807 manat olacağı proqnozlaşdırılır.

Göründüyü kimi, dövlət qlobal pandemiya ilə mübarizə dövründə də üzərinə düşən vəzifələri layiqincə həyata keçirir, heç bir sosal layihənin icrasını təxirə salmır. Bütün bunları Azərbaycan hökuməti öz hesabına, heç bir təşkilatdan borc almadan həyata keçirir. Əlbəttə ki, Azərbaycanın pandemiya ilə mübarizə planlarını, sosial layihələrini öz hesabına reallaşdırması Prezident İlham Əliyevin siyasi müdrikliyinin, qətiyyətli, cəsarətli qərarlarının göstəricisidir.

Bütün bunlar onu deməyə əsas verir ki, bu siyasət davamlıdır. Ən əsası odur ki, bunun üçün siyasi iradə və ölkənin kifayət qədər maliyyə imkanı var. Vətən müharibəsindəki şanlı Zəfərdən sonra Prezident İlham Əliyev postmüharibə dövrü üçün müəyyənləşdirdiyi yeni inkişaf strategiyasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi prioritet olaraq qalır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan-Rusiya Birgə Komissiyasının 21-ci görüşü keçirilib

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Sazişə" əsasən yaradılan Samur transsərhəd çayının su ehtiyatlarının bölünməsi üzrə Azərbaycan-Rusiya Birgə Komissiyasının 21-ci görüşü təşkil olunub.

Görüş COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də videokonfrans şəklində keçirilib.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov AZƏRTAC-a bildirib ki, Azərbaycan-Rusiya Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda Səhmdar Cəmiyyətin əməkdaşları Əjdər Cavadov, Elxan Hüseyinov və komissiyanın üzvləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri iştirak ediblər.

Videokonfrans şəklində keçirilən görüşdə bir sıra məsələlər müzakirə olunub. Belə ki, Samur çayının su ehtiyatlarının iki ölkə arasında bölgüsü və monitorinqi, Samur Hidroqovşağının birgə istismarı və digər məsələlərə baxılıb. Müzakirələrin nəticəsində görüləcək tədbirlər barədə protokol imzalanıb.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Sankt-Peterburqa səfər edib

Noyabrın 24-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti MDB Parlamentlərarası Assambleyasının Şura və 53-cü plenar iclaslarında iştirak etmək üçün Rusiya Federasiyasına səfər edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sankt-Peterburqun "Pulkovo" Hava Limanında Milli Məclis Sədrinin başçılıq etdiyi nümayəndə heyətini MDB PA Şurasının Baş katibi Dmitri Kobitski, ölkəmizin Sankt-Peterburq şəhərindəki baş konsulu Sultan Qasımov və digər rəsmi şəxslər qarşılayıblar.

Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın Şura iclasında və bu çərçivədə keçiriləcək beynəlxalq konfransda iştirak edəcək. S.Qafarovanın tədbirə qatılacaq nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri nəzərdə tutulub.



# Milli Məclisin Sədri Sahibə Qafarova beynəlxalq konfransda çıxış edib

Xəbər verdiyimiz kimi, MDB PA-nın tədbirlərində iştirak etmək üçün Sankt-Peterburqda işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 25-də "Səhiyyə xidmətlərinin hamıya şamil olunması və dayanıqlı inkişafın məqsədləri" mövzusunda beynəlxalq konfransda çıxış edib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.

Milli Məclisin Sədri qeyd edib ki, COVID-19 pandemiyasının tüğyan etməsi fonunda səhiyyə xidmətlərinin hamıya şamil olunması vacibliyinin önə çıxdığı indiki dövrdə bu konfransın əhəmiyyəti böyükdür.

Sahibə Qafarova bildirib ki, səhiyyə xidmətlərinin hamıya şamil olunmasının əsas vəzifələrindən biri müalicənin hər kəs üçün əlçatan olmasıdır. Bütün ölkələrdə səhiyyəyə qoyulan investisiyaların həcminin və keyfiyyətinin yüksəldilməsi, milli səviyyələrdə fəaliyyətlərin artırılması dünyanı bu məqsədə nail olmağa daha da yaxınlaşdıracaq.

Beynəlxalq konfransın iştirakçılarına Azərbaycan səhiyyəsi barədə məlumat verən spiker qeyd edib ki, ölkəmizdə səhiyyə sisteminin inkişafı, maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi, bu sahədə infrastrukturun yenilənməsi daim dövlətin diqqət mərkəzindədir. Ölkə rəhbərliyinin həyata keçirdiyi sosial siyasət sayəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ilbəil artırılması tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına və ümumilikdə xidmət səviyyəsinin yüksəldilməsinə imkan yaradır.

Sahibə Qafarova bildirib ki, son 18 ildə ölkəmizdə 700-dən çox xəstəxana yenidən qurulub və əsaslı təmir olunub. Tibb müəssisələrimiz ən yüksək standartlara cavab verir. Ardıcıl olaraq səhiyyə sisteminin və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində addımlar atılır. Azərbaycanda hər il 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Nəzərə çatdırılıb ki, hazırda tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və əhalinin bu xidmətlərə əlçatanlığının təmin edilməsi məqsədilə ölkəmizdə icbari tibbi sığorta tətbiq olunur. Bu məqsədlə 2016-cı ildə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb.

Milli Məclisin Sədri səhiyyə sahəsində bir sıra dövlət proqramlarının həyata keçirilməsində müstəsna xidmətləri olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini ayrıca qeyd edib. Bildirib ki, fond şəkərli diabet və talassemiya xəstələrinə qulluq göstərilməsi və onların müalicə edilməsi, qanvermə aksiyaları, ana və uşaq sağlamlığının qorunması sahələrində bir çox böyük layihələri gerçəkləşdirib.

Azərbaycan parlamentinin rəhbəri qeyd edib ki, 2030-cu ilədək səhiyyə xidmətlərinin hamıya şamil olunmasını təmin etmək BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində əsas hədəflərdən biridir.






Azərbaycan öz regionunda 2030-cu ilədək olan dövrdə gündəliyin icrasına dair 3-cü könüllü milli hesabatı təqdim edən ilk dövlətdir, dünya miqyasında isə 12 ölkədən biridir. Dayanıqlı İnkişaf Məqsədləri İndeksində 100 mümkün baldan 72,4 bal toplayan Azərbaycan 2021-ci ilədək dayanıqlı inkişaf hesabatında 165 ölkə arasında 55-ci yeri tutub ki, bu da regionda ən yaxşı nəticədir. Bundan başqa, insanın sağlamlığı ölkənin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafının tərkib hissəsi və 5 milli prioritetdən biridir.

Konfransda Sahibə Qafarova son illərin bütün dünyada səhiyyə sistemi üçün sınaq dövrü olduğunu vurğulayıb. O, nəhəng elmi-intellektual potensiala və qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələrin belə koronavirus epidemiyasının yayılmasına qarşı dura bilmədiklərini təəssüflə qeyd edib.

Spiker diqqətə çatdırıb ki, keçən il dünya pandemiyaya məruz qalarkən beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi işğal altında olan Azərbaycan 1 milyondan çox qaçqın və məcburi köçkünün olmasına, Ermənistanın davamlı hərbi təxribatlarına və bunun nəticəsində torpaqlarının azad edilməsi üçün başlanmış 44 günlük müharibəyə baxmayaraq, infeksiyanın yayılması nəticəsində yaranmış təhlükələrə vaxtında və adekvat reaksiya verərək ciddi tədbirlər gördü.

Milli Məclisin Sədri çıxışında pandemiya ilə mübarizədə Azərbaycan parlamentinin rolundan da söz açıb. O, məlumat verib ki, parlamentdə, həmçinin ayrı-ayrı komitələrdə problemlə əlaqədar geniş müzakirələr təşkil olunub, bir sıra qanunvericilik aktlarına əhali arasında koronavirusa yoluxma hallarının azaldılmasına xidmət edən əlavə və dəyişikliklər edilib.

Azərbaycan tərəfindən COVID-19-la mübarizədə qlobal səylərin, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində səylərin səfərbər olunması təşəbbüslərinin irəli sürüldüyünü vurğulayan Milli Məclisin Sədri Sahibə Qafarova xatırladıb ki, ölkəmiz "peyvənd millətçiliyi"ndən - zəngin ölkələrin ehtiyaclarından qat-qat artıq peyvənd almasından narazılığını dəfələrlə açıq şəkildə bəyan edib. Spiker bildirib ki, noyabrın 17-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın üçüncü komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. BMT-yə üzv olan 126 dövlət həmmüəllif qismində bu qətnaməyə qoşulub.

Parlamentin Sədri konfrans iştirakçılarına onu da bildirib ki, Azərbaycan könüllü olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində maliyyə yardımı edib. Bununla yanaşı, koronavirusla mübarizəni dəstəkləmək üçün 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Azərbaycan bir neçə ölkəyə təmənnasız peyvənd dozası verib.

Çıxışının yekununda Milli Məclisin Sədri Sahibə Qafarova əminliyini ifadə edib ki, parlamentarlar da öz səviyyələrində əhalinin sağlamlığının ümumbəşəri təhlükəsizliyini təmin etmək üçün bütün mümkün tədbirləri görəcək və bununla da davamlı inkişaf məqsədlərindən birinə - sağlam həyat tərzinin təmin edilməsinə və hamı üçün rifahın təşviqinə nail olacaqlar.

Sonra MDB PA-nın Şura iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın Şura iclasında gündəlikdəki "Üçüncü Avrasiya Qadın Forumunun keçirilməsinin nəticələrinə dair" məsələ barədə çıxış edib.

Spiker qeyd edib ki, ümumilikdə forum qadınların müxtəlif tematik sessiyalarda canlı ünsiyyətdə olması üçün müsbət rol oynayıb. Çünki hər bir müzakirə bu və ya digər şəkildə bu gün bölgə qadınlarını narahat edən əsas suallara cavab axtarışına öz töhfəsini verir. Sülh və etimad gündəminin formalaşmasında, iqtisadiyyatın və səhiyyənin inkişafında, sosial transformasiyaların həyata keçirilməsində və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün müxtəlif layihələrin işlənib hazırlanmasında qadınların rolu böyükdür.

# MDB PA üzv ölkələr arasında əlaqələrin dərinləşməsinə və fikir mübadiləsinin aparılmasına töhfə verir



Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın Şura və 53-cü plenar iclaslarında iştirak etmək üçün Rusiya Federasiyasında işgüzar səfərdədir.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Sədri səfər çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.

Valentina Matviyenko ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edib. O, parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafında vacib rolunu vurğulayaraq, bu əlaqələrin inkişafına töhfə və dəstək verdiyi üçün Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib.

MDB PA-nın uğurlu fəaliyyətini qeyd edən Federasiya Şurasının Sədri deyib ki, bu təşkilat quruma üzv ölkələr arasında əlaqələrin dərinləşməsinə və fikir mübadiləsinin aparılmasına töhfə verir. O, Azərbaycanın təşkilatda fəal iştirakına görə təşəkkürünü bildirib, 53-cü plenar iclasın uğurlu olacağına inamını ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, gələn il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olacaq. Bu illər ərzində Azərbaycanla Rusiya arasında bir çox sahələri əhatə edən uğurlu əlaqələr qurulub. Ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığını bildirən Milli Məclisin Sədri əlaqələrimizin inkişafında iki ölkənin dövlət başçılarının rolunu xüsusi vurğulayıb.

Azərbaycan və Rusiyanın qanunverici orqanları arasında münasibətlər haqqında da danışan Sahibə Qafarova bildirib ki, ikitərəfli əlaqələrin inkişafında parlamentlərin özünəməxsus rolu var. Bu sahədə həm Milli Məclisdə, həm də Federal Məclisdə fəaliyyət göstərən dostluq qruplarının, həmçinin Milli Məclis və Federal Məclis arasında daimi fəaliyyət göstərən ikitərəfli parlamentlərarası komissiyanın işi müsbət qiymətləndirilir.

Sahibə Qafarova 2020-ci ildə 44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı Qələbə barədə məlumat verərək deyib ki, Azərbaycan bu qələbə nəticəsində 30 il işğal altında qalan torpaqlarını azad edib, ərazi bütövlüyünü bərpa edib. Ötən il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanan üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub və bununla da yeni bir mərhələ başlayıb. Sahibə Qafarova üçtərəfli Bəyanatın icrasının vacibliyini vurğulayıb. O, Azərbaycanın bəyanatdan irəli gələn bütün məsələləri yerinə yetirdiyini bildirib. Qeyd edib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə geniş bərpa və quruculuq işləri həyata keçirir. Azərbaycan regionda sülh və təhlükəsizliyin təmin olunmasını istəyir və bu istiqamətdə lazımi bütün işləri görür. Azərbaycan ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara başlamağa hazır olduğunu bəyan edib. Ermənistan isə yenə də təxribatlardan əl çəkmir.

Milli Məclisin Sədri noyabrın 16-da dövlət sərhədində Ermənistan tərəfindən törədilən təxribatlar nəticəsində baş verən döyüş əməliyyatları barədə məlumat verərək qeyd edib ki, bu təxribat nəticəsində 7 nəfər hərbi qulluqçumuz şəhid olub. O, xüsusilə vurğulayıb ki, bu təxribatın məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Milli Məclisin Sədri həmçinin diqqətə çatdırıb ki, bu günə qədər Ermənistan tərəfindən basdırılmış minaların partlaması nəticəsində hərbi qulluqçularla yanaşı, mülki şəxslər də həlak olublar. Sahibə Qafarova həlak olanlar arasında sülhməramlıların da olduğunu Valentina Matviyenkonun diqqətinə çatdırıb. Bildirilib ki, Ermənistanın bütün çağırışlara baxmayaraq, minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtinası beynəlxalq hüquqa və regionda sabitliyin bərpa olunması cəhdlərinə qarşı yönəlib.

Sonda Milli Məclisin Sədri Sahibə Qafarova Valentina Matviyenkoya "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab təqdim edib.

# Birqit Bişof EBBESEN: "Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası Azərbaycanla əməkdaşlıqda maraqlıdır"





Noyabrın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova Sankt-Peterburqda Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Avropa üzrə direktoru xanım Birqit Bişof Ebbesen ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Sədri Azərbaycanın Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə əməkdaşlığa əhəmiyyət verdiyini deyib. Bildirib ki, ölkəmiz uzun illərdir ki, bu qurumlarla yaxından əməkdaşlıq edir. Təəssüf ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış bir sıra problemlər hələ də öz həllini tapmayıb.

S.Qafarova diqqətə çatdırıb ki, Birinci Qarabağ müharibəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb və onların taleyi hələ də məlum deyil. Həmin şəxslərin ailələri, yaxınları bu gün də onlardan məlumat ala bilmirlər. Bu münaqişə nəticəsində 1 milyona yaxın azərbaycanlı doğma yurd-yuvalarından didərgin düşüb, məcburi köçkün və qaçqın olublar. Onların həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan dövlətinin prioritet məsələsi olub. Həmin şəxslər dövlətin daimi qayğısı ilə əhatə olunublar.

Sahibə Qafarova qeyd edib ki, münaqişə artıq tarixə qovuşub. Azərbaycan bölgədə sülhün və sabitliyin bərqərar olunması üçün çalışır. İşğaldan azad olunmuş ərazilərdə artıq bərpa və yenidənqurma işləri başlayıb, məcburi köçkünlərimiz tezliklə öz doğma yurd-yuvalarına qayıtmalıdırlar.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı ədaləti bərpa edərək Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad etməsi nəticəsində 30 illik münaqişə başa çatıb. Lakin buna baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin tam xəritələrini verməkdən imtina edir. Bununla da beynəlxalq hüququn tələblərini pozmaqla yanaşı, həm də bölgədə sülhün və sabitliyin təmin olunmasına mane olur.

Söhbət zamanı Sahibə Qafarova "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə istinad etməyin yolverilməz olduğunu bildirib. Qeyd edib ki, "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. Azərbaycan ötən il Vətən müharibəsində qazandığı tarixi Zəfərlə ərazi bütövlüyünü bərpa edib. Bununla da ölkəmiz həm də BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini özü yerinə yetirib.

Azərbaycan Milli Məclisinin Sədri ilə görüşməsindən məmnunluğunu ifadə edən Birqit Bişof Ebbesen Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının gördüyü işlərdən və ölkəmizlə əməkdaşlığı barədə danışıb. Bildirib ki, federasiya dünyanın müxtəlif ölkələrində fəlakət qurbanlarına yardım göstərmək məqsədilə müvafiq əməliyyatlar keçirməklə yanaşı, əsas qüvvəsi olan milli cəmiyyətlərin potensialının gücləndirilməsi istiqamətində işlər aparır. Milli cəmiyyətlər arasında əməkdaşlığın mövcudluğu federasiya tərəfindən ehtiyacı olanlara yardımın göstərilməsində və çatdırılmasında geniş imkanlar yaradır. O, təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu qeyd edərək, bunun üçün mövcud imkanların dəyərləndirilməsinin vacibliyini bildirib.

Söhbət zamanı digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində KİV tərəfindən görülən işlər müzakirə edilib

Noyabrın 25-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun iştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilən tədbirlərin müzakirəsi məqsədilə Nazirlər Kabinetində növbəti görüş olub.



Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupundan AZƏRTAC-a bildiriblər ki, tədbirdə cari ilin sentyabr-oktyabr ayları ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ilə bağlı kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr müzakirə edilib.

Görüşdə Dövlət komissiyasının sədri Əli Əhmədov çıxış edərək bildirib ki, narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin müasir cəmiyyətin üzləşdiyi ən ciddi və təhlükəli qlobal problem olduğu nəzərə alınaraq, ölkəmizdə də narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə dövlət səviyyəsinə qaldırılıb. Belə ki, bu ilin on ayı ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə hüquq-mühafizə orqanları tərəfindən müsbət nəticələr əldə olunub. Həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 7484 cinayət faktı aşkarlanıb, qanunsuz dövriyyədən 5 ton 880 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Antinarkotik təbliğatın müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla təşkil edilməsi, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilərək sistemli şəkildə müvafiq işlərin görülməsinin vacibliyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyətinin sədri Aslan Aslanov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, İctimai Televiziyanın baş direktoru Balakişi Qasımov, "Real" Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayev, "Xəzər TV MMC"nin baş direktoru Murad Dadaşov, "Azad Azərbaycan Teleradio Yayım Şirkəti"nin rəhbəri Azər Xəlilov, "Space" Müstəqil Teleradio Şirkətinin direktoru Müşfiq Hətəmov, ARB TV-nin direktoru Radik İsmayılov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək narkomanlığa qarşı maarifləndirmə tədbirlərinə dair təşəbbüsləri dəstəkləyib, narkomanlığın ailədə və cəmiyyətdə doğurduğu fəsadların kütləvi informasiya vasitələri tərəfindən daha geniş işıqlandırılmasının zəruriliyini vurğulayıblar.

Görüşün yekunu olaraq aidiyyəti dövlət qurumları tərəfindən effektiv və təsirli sosial videoçarxların hazırlanması və kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılması, psixoaktiv maddələrdən istifadənin risk amilləri, insan sağlamlığına zərərli təsiri və problemin mahiyyətini ifadə edən müəllif yazılarının və videomaterialların hazırlanması, aidiyyəti dövlət orqanlarının mütəxəssislərinin iştirakı ilə xüsusi verilişlərin təşkil olunmasına dair müvafiq tövsiyələr verilib və qərarlar qəbul olunub.

# Ermənistanın öhdəliklərini yerinə yetirməkdən başqa yolu yoxdur

*Əvvəli 1-ci səh.*

Ölkədə vergilərin yığılmasında, büdcənin formalaşmasında və icrasında ciddi problemlər mövcuddur. Xarici biznes üçün Ermənistana sərmayə yatırmaq artıq böyük risk sayılır. Müharibədən sonra diaspor tərəfindən edilən ianələrin də miqdarı əhəmiyyətli dərəcədə azalıb.

Təsadüfi deyil ki, Ermənistanı dərin sosial-iqtisadi böhran səbəbindən tərk edənlərin sayı son bir ildə daha böyük miqyas alıb. Bu ölkədə onsuz da böhran vəziyyətində olan demoqrafik şərait daha da kəskinləşib. Vətəndaş cəmiyyətinin təmsilçiləri həyəcan təbili çalırlar və vəziyyət o həddə çatıb ki, orduya çağırışda problemlər artıq özünü daha ciddi göstərir.

Belə bir şəraitdə Ermənistan illər boyu əl çəkmək istəmədiyi işğal siyasətinin və 44 günlük müharibənin nəticələrindən dərs çıxarmalıdır. Həm də üçtərəfli Bəyanatda yer alan məsələlərin icrası Emənistanın hüquqi öhdəliyidir. Lakin müharibənin başa çatmasından ötən müddət ərzində Ermənistanın qeyri-konstruktiv davranışı özünü göstərməkdədir. Hakimiyyət nümayəndələri ara-sıra kommunikasiyaların açılmasının, sərhədlərin delimitasiyası və demarkasiyasının vacibliyindən bəhs etsələr də, konkret addımların atılmasına maraq göstərmirlər. Bununla yanaşı, sərhəd zonalarında Ermənistan tərəfindən həyata keçirilən hərbi təxribatlar, Şuşada hərbçilərimizə qarşı terror törədilməsi bu ölkənin sülh prosesinə əngəllər yaratmaq niyyətindən başqa bir şey deyil.

Üstəlik, bəzi xarici siyasi dairələr də sülhün əldə edilməsnə maneçilik törətməyə cəhd göstərir, öz fəaliyyətləri ilə Ermənistanı üçtərəfli Bəyanatın tələblərini yerinə yetiməkdən çəkindirməyə çalışırlar. ATƏT-in Minsk qrupunun üzvü kimi bitərəfliyini qorumalı olduğu halda hələ Vətən müharibəsi dövründən Ermənistanın müdafiəsinə qalxan Fransanın siyasi dairələri öz hərəkətləri ilə bunu açıq şəkildə nümayiş etdirirlər. Bir neçə gün bundan əvvəl Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki separatçıların Fransa senatında bəzi rəsmilər səviyyəsində "rəsmi qonaq - nazir və parlament spikeri" kimi qəbul edilməsi bir daha göstərdi ki, bu ölkənin siyasi dairələri Azərbaycanın ədalət yolu ilə həll etdiyi keçmiş problemi süni yolla canlandırmağa çalışırlar.

İkili standartlara, Ermənistana göstərilən güclü beynəlxalq dəstəyə baxmayaraq, Azərbaycan torpaqlarını işğaldan azad etdi. Müharibənin qalibi olan və mövqelərini daha da möhkəmləndirən Azərbaycanın qarşısında Ermənistan bundan sonra heç vaxt duruş gətirə bilməz. Qərbin siyasi dairələrinin də sülh prosesinə maneçilikləri əbəsdir. Ona görə də Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən başqa yolu yoxdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan delimitasiya prosesinə başlamağa hazırdır, lakin Ermənistan buna qarşılıq verməyib"

Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Annika Söder ilə videokonfrans formatında görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən regionda nəqliyyat kommunikasiyaların açılması ilə bağlı Azərbaycan tərəfindən görülən tədbirlər və digər məsələlər barədə qarşı tərəfə məlumat verib. Azərbaycanın bölgədə uzunmüddətli sülh və əmin-amanlığın təmin olunması mövqeyindən çıxış etdiyi vurğulanıb. Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla delimitasiya prosesinə başlamağa hazır olduğu, lakin Ermənistan tərəfindən buna qarşılıq verilmədiyi qeyd edilib.

Nazir həmçinin azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən həyata keçirilən quruculuq işlərindən danışıb, eləcə də ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən irimiqyaslı regional layihələr, onların geniş coğrafi bölgənin inkişafı və tərəqqisinə xidmət etdiyini bildirib.

Öz növbəsində xüsusi nümayəndə Annika Söder ATƏT-in fəaliyyətdə olan sədri qismində İsveçin Cənubi Qafqaz bölgəsində regional əməkdaşlığı, bu xüsusda Azərbaycanın səylərini dəstəklədiyini bildirib, bu istiqamətdə fəaliyyətin bütün bölgənin inkişafı üçün önəmli olduğunu ifadə edib.

Tərəflər Azərbaycanın ATƏT ilə əməkdaşlığı, o cümlədən həyata keçirilən layihələri və gələcək planları, habelə cari ilin dekabr ayında Stokholm şəhərində keçiriləcək qurumun Nazirlər Şurasının 28-ci iclasına hazırlıq məsələlərini müzakirə ediblər.

Görüşdə tərəflər habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Karabakh Memorial" internet resursunun təqdimat mərasimi keçirilib

Vətən müharibəsi zamanı beynəlxalq humanitar hüququn norma və prinsiplərinə məhəl qoymayan Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhaliyə qarşı törədilən terrorun nəticələrini dünya ictimaiyyətinə çatdırmaq, eləcə də həlak olmuş mülki əhalinin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılmış "Karabakh Memorial" internet resursunun noyabrın 25-də təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, bu internet resursu ideya müəllifi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva olan "Karabakh Center" layihəsi çərçivəsində yaradılıb.

Tədbirdə Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin deputatları, Xarici İşlər Nazirliyinin təmsilçiləri və Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhaliyə qarşı törədilən terror nəticəsində ailə üzvlərini, əzizlərini və yaxınlarını itirən şəxslər iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, ötən il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğu" ətrafında birləşərək həmrəylik nümayiş etdirib və tarixi Zəfər qazanıb.

Bu müharibədə Azərbaycan Ordusu qarşısında məğlub olan Ermənistan silahlı qüvvələri mülki əhalini hədəfə alıb və müharibə zonasından xeyli aralıda yerləşən şəhər və rayon mərkəzlərini qadağan olunmuş silahlarla atəşə tutublar.

Ermənistan silahlı qüvvələrinin döyüş bölgələrindən uzaq məsafədə yerləşən şəhər və qəsəbələrimizdə yaşayan dinc əhaliyə qarşı törətdiyi müharibə cinayətləri nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla ümumilikdə 93 mülki şəxs həlak olub.

İkinci Qarabağ müharibəsindən dərhal sonra Ermənistan silahlı qüvvələrinin müharibə cinayətləri nəticəsində ailə üzvlərini, doğmalarını, əzizlərini və yaxınlarını itirmiş şəxslərlə çoxsaylı görüşlər keçirilib, müsahibələr alınıb. Həlak olmuş şəxslər haqqında zəruri informasiya, on mindən artıq foto və sənəd toplanıb.

"Karabakh Memorial" layihəsində "Azyaşlı qurbanlar", "Təcavüzün mülki qurbanları", "Erməni hücumlarının hədəfləri" bölmələri və terror aktları nəticəsində həlak olan 12 azyaşlının hekayəsi 3 dildə yer alıb.

Rəhman Hacıyev vurğulayıb ki, "Karabakh Memorial" internet resursu Ermənistanın müharibə cinayətlərinin beynəlxalq təşkilatlar tərəfindən araşdırılması və bu cinayətlərin ifşası üçün əhəmiyyətli mənbə olacaq. Həmçinin "Karabakh Memorial" internet resursunda sənədləşdirilmiş və əbədiləşdirilmiş materialların sosial şəbəkələrdə və digər informasiya resurslarında təbliğatı aparılacaq.

Təqdimat mərasimində çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Qarabağın 30 ilə yaxın işğalda olduğu dövrdə yüz minlərlə azərbaycanlı ailə - qadınlar, uşaqlar fundamental hüquqlarından məhrum ediliblər. Beynəlxalq erməniçiliyin fəaliyyəti bütün dünya üçün ən böyük cinayət olsa da, bu illər ərzində beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın törətdiyi cinayətlərə laqeyd münasibət göstərilib və təcavüzkar ölkəyə heç bir təzyiq edilməyib.

Bahar Muradova doğmalarını, əzizlərini və yaxınlarını itirən şəxslər haqqındakı sənədlərin, fotoların toplanmasının və Ermənistana qarşı ittiham sənədinə daxil edilməsinin zəruriliyini vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva deyib ki, BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasında və digər mühüm sənədlərdə uşaqlarla bağlı təsbit olunan hüquqların həyata keçirilməsi, onların təhlükəsiz, bərabər, tolerant və sağlam mühitdə yaşamasının, layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətlərin qarşısında duran ən mühüm vəzifələrdəndir. Uşaqların hüquq və maraqlarının qorunması, hərtərəfli inkişafı istiqamətində göstərilən səylərə baxmayaraq, əfsuslar olsun ki, müasir dünya reallığında onlar bir sıra təhlükələrdən, o cümlədən müharibədən əziyyət çəkirlər. Təəssüf ki, 2020-ci ildə Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Naftalan, Ağcabədi, Gəncə, Tərtər, Bərdə kimi şəhər və rayonlarında yerləşən mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində ümumilikdə 10-dan çox uşaq həlak olub, 50-si yaralanıb, bir çox uşaq isə valideynlərini itirib. Ermənistanın Azərbaycana qarşı 30 illik hərbi təcavüzü dövründə çoxsaylı belə hallar olub. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 63 uşağın öldürülməsi, habelə Ermənistan silahlı qüvvələrinin mülki yaşayış məntəqələrini atəşə tutması nəticəsində 2011-ci ildə Ağdam rayonunda 9 yaşlı Fariz Bədəlovun və Tovuz rayonunda 13 yaşlı Aygün Şahmalıyevanın, 2017-ci ildə Füzuli rayonunda 2 yaşı tamam olmayan Zəhra Quliyevanın nənəsi ilə birlikdə həlak olması uşaqların Ermənistan tərəfindən törədilən müharibə cinayətlərinin qurbanına çevrilmələrinin bariz nümunələrindəndir.

Qeyd edilib ki, Birinci Qarabağ müharibəsi nəticəsində 4000-ə yaxın itkin düşmüş şəxs arasında uşaqlar da olub.

Ermənistanın hücumları ötən il Şəhriyar Qurbanov kimi neçə-neçə istedadlı uşağın həlak olmasına, onların incəsənət, idman sahələrində arzularının nakam qalmasına səbəb olub. Eləcə də Gəncə şəhərinə atılan raket nəticəsində Rusiya Federasiyası vətəndaşı Artur Mayakovun qətli bir daha sübut etdi ki, Ermənistanın törətdiyi cinayət aktları nəticəsində dilindən, dinindən, irqindən, milli, etnik və ya sosial mövqeyindən asılı olmayaraq, bütün uşaqlar qurbana çevrilir.

Azərbaycan isə heç bir əlamətinə görə ayrı-seçkiliyə yol vermədən hər bir uşağın hüquqlarına hörmət bəsləyir, onların sülh, multikulturalizm, tolerantlıq şəraitində yaşamasını təmin edir.

Ermənistan 1949-cu il Cenevrə Konvensiyaları, BMT-nin Uşaq Hüquqları Konvensiyası da daxil olmaqla, bir çox beynəlxalq hüquq normalarını dəfələrlə kobud şəkildə pozmuşdur. Lakin Ermənistana qarşı hələ də heç bir beynəlxalq hüquqi sanksiya tətbiq edilməmişdir. Habelə mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil və səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, sağlamlıq və digər hüquqlarının pozulmasına gətirib çıxarmışdır. Bununla yanaşı, intensiv şəkildə atəş açılması uşaqların psixoloji sarsıntı keçirməsinə səbəb olmuşdur.

Tədbirdə həmçinin Milli Məclisin deputatı Müşfiq Cəfərov və Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva çıxış ediblər.

Sonra "Karabakh Memorial" layihəsinin təqdimat videosu nümayiş etdirilib.

# Azərbaycanın baş prokuroru və İstanbul şəhərinin baş prokuroru Füzuliyə və Şuşaya səfər ediblər

Türkiyə Respublikası İstanbul şəhərinin baş prokuroru Şaban Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfəri davam edir.





AZƏRTAC xəbər verir ki, noyabrın 24-də baş prokuror Kamran Əliyev və qonaqlar Azərbaycanın işğaldan azad olunmuş Füzuli rayonuna səfər ediblər.

Səfərin iştirakçıları Ermənistanın 27 il ərzində Füzuli rayonunda törətdiyi müharibə cinayətlərinin ağır fəsadları, vəhşilik və vandalizm əməllərinin ağır izləri ilə yerində tanış olub.

Kamran Əliyev vaxtilə Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olan Füzulidə ermənilərin yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıtdıqlarını, salamat tikili saxlamadıqlarını qonaqların diqqətinə çatdırıb.

Daha sonra nümayəndə heyəti Qarabağın "hava qapısı" adlandırılan, müasir səviyyədə inşa olunmuş, ən son texniki avadanlıqla təchiz edilmiş Füzuli Beynəlxalq Hava Limanı ilə yaxından tanış olub. Qonaqlara hava limanında yaradılmış şərait barədə ətraflı məlumat verilib.

Sonra nümayəndə heyəti Azərbaycanın mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərinə səfər edib.

Baş prokuror Kamran Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan Ordusunun şanlı Zəfəri nəticəsində Şuşanın Ermənistanın işğalından azad edildiyini vurğulayıb, qonaqlara dövlətimizin başçısının tapşırığı ilə həyata keçirilən genişmiqyaslı təmir-bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Bildirilib ki, qısa zaman kəsiyində Şuşa şəhəri ərazisində bir neçə müasir hotel inşa edilməklə yanaşı, tarixi, dini abidələrin bərpası istiqamətində işlər görülür. Tikintisində türk şirkətlərinin də iştirak etdiyi "Zəfər" yolunun strateji əhəmiyyətindən söz açan baş prokuror Cıdır düzünün xalqımızın qürur mənbəyinə çevrildiyini qonaqların diqqətinə çatdırıb.

Türkiyəli qonaqlar Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər.

Məlumat verilib ki, işğal zamanı ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Lakin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər alınaraq Azərbaycana gətirilib və Bakıda, İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər əvvəlki yerlərinə qaytarılıb.

Şuşada qonaqlar qala divarları ilə tanış olublar. Onlara Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Azərbaycanın dahi şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi ilə tanış olan qonaqlara məlumat verilib ki, kompleksin tikintisinə 1977-ci ildə başlanılıb. İnşaat işləri dörd il davam edib. 1982-ci ildə Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub. Burada Vaqifin Şuşadakı həyatını əks etdirən dövrə aid 80-ə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal olunması nəticəsində kompleksin binası və burada sərgilənən onlarca eksponat məhv edilib, daşınması mümkün olan eksponatlar isə Ermənistana aparılıb.

Sonra tarixi Şuşanın mərkəzi meydanında yerləşən və şəhər ərazisində tikilmiş ən qədim məscid - Yuxarı Gövhər ağa məscidi ziyarət edilib. Bildirilib ki, 1768-1769-cu illərdə inşa edilən bu məscid də işğal dövründə erməni vandalizminə məruz qalıb. Məsciddə bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş Xalq artisti Bülbülün ev-muzeyini ziyafət edən qonaqlara məlumat verilərkən bildirilib ki, görkəmli musiqiçi 1982-ci ildən ev-muzeyi kimi fəaliyyət göstərən bu evdə anadan olub və uşaqlıq illərini burada keçirib.

Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il avqustun 31-də Bülbülün doğulduğu və yaşadığı evin ev-muzeyinə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Bu il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı ev-muzeyi ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, muzeydə aparılan təmir-bərpa və yenidənqurma işləri artıq başa çatıb.

Hazırda binada Bülbülün muzey ekspozisiyası qurulub. Ev-muzeyinin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldılıb.

Şuşa şəhəri işğalda olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü isə erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

Cıdır düzündən açılan gözəl mənzərəni seyr edən qonaqlara məlumat verilib ki, bura daim Şuşa sakinlərinin, eləcə də qonaqların istirahət yeri olub. Lakin erməni işğalı nəticəsində buraya ziyarətçilərin gəlişi dayanıb.

İstanbul şəhərinin baş prokuroru Şaban Yılmaz səfərlə bağlı təəssüratlarını bölüşərək deyib: "Bu günlər Azərbaycan xalqı üçün tarixi bir gündür. Otuz ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə Azərbaycan dövlətinin şanlı Qələbəsi ilə son qoyuldu. Bu, tarixi Qələbədir. Azərbaycanın son 200 illik tarixində ilk dəfə müstəqil dövlətimiz mənfur, işğalçı Ermənistan və onun ordusu üzərində şanlı Qələbə qazandı. Bu Qələbə Azərbaycan xalqının gələcəyi üçün elə bir əsas yaratdı ki, bu təməl üzərində Azərbaycan dövləti daim inkişaf edəcək, zənginləşəcək, dünya dövlətləri sırasında ən öndə gedəcək. Bu gün qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinin işğaldan azad edilməsi bütün dünya türkləri tərəfindən təntənə ilə qeyd olunur".

# Fikrət Əmirovun və Hacı Zeynalabdin Tağıyevin yubileyləri UNESCO-da qeyd ediləcək

Dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun və böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yubileyləri UNESCO-nun yubileylər proqramına daxil edilib.

AZƏRTAC xəbər verir ki, Parisdə keçirilən UNESCO-nun 41-ci Baş Konfransı çərçivəsində Azərbaycanın iki tarixi şəxsiyyəti - mesenat H.Z.Tağıyevin (1823-1924) anadan olmasının 200 illiyi və bəstəkar Fikrət Əmirovun (1922-1984) 100 illiyi UNESCO-nun 2022-2023-cü illər üzrə yubileylər proqramına salınıb və bu yubileylərin UNESCO səviyyəsində beynəlxalq miqyasda qeyd edilməsi təsdiq edilib.

# Nizami Gəncəvinin ədəbi irsi bəşəriyyətin söz xəzinəsinə mühüm təsir göstərib

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Bakıda keçirilən Nizami Gəncəvi Beynəlxalq Forumu panel iclaslarla davam edir.



AZƏRTAC xəbər verir ki, beynəlxalq tədbirin ikinci iş günü - noyabrın 25-də "Nizami Gəncəvi "Xəmsə"sinin dünya ədəbiyyatına və mədəniyyətinə təsiri" mövzusu üzrə panel iclas keçirilib.

Macarıstanlı professor Miklos Sarkozinin moderatorluğu ilə keçirilən sessiyada ilk olaraq "LiFFt" nəşrinin baş redaktoru Marqarita Almuhammedovanın "Nizami poeziyası: dünən, bu gün və gələcəkdə" mövzusunda məruzəsi dinlənilib. O, Nizami Gəncəvi yaradıcılığının rəhbərlik etdiyi nəşrdə əsərlərin çapı ilə bağlı məlumat verib. Məruzəçi Rusiya və Qazaxıstan alimlərinin Nizami yaradıcılığı ilə bağlı tədqiqatlarından söz açıb.

Rusiya Milli Kitabxanasının şöbə müdiri Olqa Yastrebova "Nizami yaradıcılığı və qəhrəmanlarının miniatürləri. Rusiya Milli Kitabxanasında qorunan kolleksiya" mövzusunda məruzə edib.

İştirakçıların diqqətinə çatdırılıb ki, Rusiya Milli Kitabxanasında Nizamiyə dair 24 əlyazma var. O.Yastrebova miniatürlərin ideya-bədii xüsusiyyətlərini təhlil edib. Bildirib ki, "Xosrov və Şirin" əsərinə çəkilmiş miniatürlər öz unikallığı ilə seçilir. 1482-ci ildə Heratda yaradılan miniatürlər rəng və ekspressiyasına görə fərqlənir. Fərhadın obrazında daha çox detallar görmək olur. Geyimi onun adi əməkçi sinfinə aid olduğunu göstərir. Buxara və Kəşmir miniatürlərində Fərhad obrazı, ümumiyyətlə, çarıqsız, ayaqyalın göstərilib.

Məruzəçi həmçinin kolleksiyada qorunan "Leyli və Məcnun", "Yeddi gözəl" (Şiraz, 1479) miniatürləri ilə bağlı da məlumat verib. "Yeddi gözəl" əlyazmasında rəssamlar Bəhramın musiqiçilərlə görüşünü, şirlərlə mübarizəsini təsvir ediblər.

Şota Rustaveli adına Gürcüstan Ədəbiyyat İnstitutunun əməkdaşı Gaga Lomidze "XII və XVIII əsrlərdə Nizami yaradıcılığının gürcü ədəbiyyatına təsiri" mövzusunda çıxış edib. Ş.Rustavelinin Nizamidən bəhrələnərək qələmə aldığı əsərlərdən söz açan məruzəçi Azərbaycan-Gürcüstan ədəbi əlaqələrinin son illərdə inkişaf etdiyini vurğulayıb. O, Nizami Gəncəvi və Şota Rustavelini Qafqaz renessansının baniləri adlandırıb. Qeyd edib ki, Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərində Nizaminin "Xosrov və Şirin" əsərinin təsiri aydın görünür.

Tbilisi Dövlət Universitetinin professoru Maka Elbakidze "Mədəniyyətlər arasında körpü - Rustaveli və Nizami" mövzusunda məruzə ilə çıxış edib. Hər iki mütəfəkkirin mistik sevgiyə müraciət etdiyini, sufi poeziyasında isə daha dərin qatlara təsir etdiyini vurğulayıb. Əsərlərdəki sevginin daha yüksək, Allaha yaxın hisslərlə təsvir edildiyini vurğulayan alim bu mərhələlərdə hər iki şairin fəlsəfi baxışlarındakı yaxınlığı qeyd edib. Bildirilib ki, gürcü professorlardan Pavel İnkorokvanın fikrincə, "Pələng dərisi geymiş pəhləvan" poemasının tədqiqi göstərir ki, Ş.Rustaveli üçün Şərq mədəniyyəti gürcü mədəniyyəti qədər yaxın və doğma idi.

Daşkənd Dövlət Pedaqoji Universitetinin professoru Erkin Nuriddinov "Özbəkistan və Azərbaycan xalqlarının mədəni və ədəbi əlaqələrinin möhkəmləndirilməsində Nizami Gəncəvinin rolu" mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, Nizami və Əlişir Nəvai xalqlarımız arasında karandaşla körpü yaradaraq xalqlarımızın mədəni əlaqəsinin təməlini qoymuşlar.

Professor qeyd edib ki, Özbəkistanda 40 mindən çox azərbaycanlı yaşayır, Azərbaycan Milli Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində hər iki ölkənin mədəniyyət və ədəbiyyat xadimlərinin təbliğində layiqli layihələr həyata keçirir. Mərkəz ilk dəfə özbək dilində "Xəmsə"ni nəşr etdirib. Daşkənd Dövlət Pedaqoji Universiteti Nizami Gəncəvinin adını daşıyır və təhsil ocağının qarşısında şairin heykəli var. Gəncədə anadan olan mütəfəkkir bütün türk xalqlarının oğludur. Özbək xalqı da Əlişir Nəvai və Nizamiyə eyni sevgini bəsləyir. Bu sevgi xalqlarımız arasında qarşılıqlıdır. İki ölkənin iki dahi şairi xalqlarımızı bir-birinə daha yaxın edir.

Sonra Ərdahan Universitetinin (Türkiyə) əməkdaşı Hanzade Güzeloğlunun "Yeddi gözəl" poemasında deyimlər: Abdi - Nizami qarşılaşdırması" mövzusunda məruzəsi dinlənilib. Tədqiqatçı bildirib ki, Nizaminin "Yeddi gözəl"indən sonra Əmir Xosrov Dəhləvi, Rai Hidayətullah və Dərviş Əşrəf, Əlişir Nəvai, Sübhizadə Feyzi, Bursalı Lami Çələbi, Abdi və başqaları bu mövzuda əsərlər yazıblar.

Abdinin əsəri Nizami "Yeddi gözəl"inin türkcəyə tərcüməsidir. İcmal xarakterli bu tərcümədə Nizaminin əsərdə yaratdığı əsas sxem saxlanılıb. Ümumiyyətlə, Nizami özündən sonra gələn şairlərin yaradıcılığına böyük təsir göstərib və bir çox ədiblər onun irsindən bəhrələnərək əsərlər meydana gətiriblər.

Türkiyəli digər araşdırmaçı Zaur Şüküroğlu isə "Türkiyədə Nizami Gəncəvi yaradıcılığının tədqiqi" mövzusunda məruzəsində qardaş ölkə alimlərinin bu sahədə apardığı elmi tədqiqatlar barədə məlumat verib.

Məruzələrdən sonra panel iclas diskussiyalarla davam edib.

Qeyd edək ki, "Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü" mövzusuna həsr olunan foruma bu gün yekun vurulacaq.

# Avtomobillə təmin olunmuş Qarabağ müharibəsi qaziləri "Zəfər" avtoyürüşü ediblər

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən avtomobillə təmin olunmuş Qarabağ müharibəsi qazilərinin "Zəfər" avtoyürüşü təşkil olunub.





Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib. Sonra İkinci Şəhidlər xiyabanına avtoyürüş edilərək, Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın məzarları ziyarət edilib.

Avtoyürüş Heydər Əliyev Mərkəzinin qarşısında yekunlaşıb.

Avtoyürüşdə iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev bildirib ki, bir il əvvəl Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində tarix yazaraq möhtəşəm Zəfər əldə etdi. Cəmi 44 gün ərzində dünya hərb tarixinə misilsiz döyüş nümunəsi kimi həkk olunan uğurlu hərbi əməliyyatlar keçirdi, doğma yurd yerlərimizi Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad etdi. 25 noyabr tarixi Zəfərimizin məntiqi nəticəsi olaraq imzalanmış üçtərəfli Bəyanata əsasən, daha bir yurd yerimizin - Kəlbəcərin hərbi əməliyyat keçirilmədən azadlığına qovuşduğu gündür. Xalqımız artıq doğma Kəlbəcərimizin azad edilməsinin birinci ildönümünü böyük sevinclə qeyd edir.

H.Abdullayev nazirliyin təşkil etdiyi, Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şərəfli döyüş yolu keçmiş igid qazilərimizin nazirlik tərəfindən onlara verilmiş avtomobillərlə iştirak etdiyi bu avtoyürüşün də möhtəşəm Zəfərimizə həsr olunduğunu vurğulayıb.

Qeyd edib ki, "Zəfər" avtoyürüşü əsl qəhrəmanlıq, mərdlik nümunəsi göstərmiş qazilərimizə yüksək dövlət qayğısını da ifadə edir. Prezident İlham Əliyevin tapşırığı ilə Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə əlilləri, qazilərimizlə bağlı genişmiqyaslı dəstək işləri aparılır. Artıq 33 min şəxs bu dəstəklə əhatə olunub. Onlara sosial ödənişlərin təyinatı, məşğulluq, reabilitasiya, sosial-psixoloji dəstək və s. istiqamətlərdə xidmət göstərilib və hazırda da bu işlər davam edir.

Nazir müavini şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramının 2021-ci ildə 5 dəfə genişləndiyini deyib. Bildirib ki, təkcə bu il həmin kateqoriyalardan olan vətəndaşlarımıza 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Onlardan artıq 1900 mənzil təqdim edilib. Ümumilikdə indiyədək 11100 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunub.

Bildirilib ki, bu il 150, ümumən, indiyədək isə 7350 müharibə əlili dövlət tərəfindən minik avtomobilləri ilə təmin edilib. Onların sırasında 44 günlük Vətən müharibəsinin qaziləri də var ki, "Zəfər" avtoyürüşündə onlar da iştirak edirlər.

# Bakıda Batut Gimnastikası üzrə XXVIII Dünya yaş qrupları yarışlarının təntənəli açılış mərasimi olub

Noyabrın 25-də Bakıda Batut Gimnastikası üzrə XXVIII Dünya yaş qrupları yarışlarının təntənəli açılış mərasimi olub.



AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında təşkil olunan mərasimdə iştirakçı ölkələrin paradından sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra hakim, məşqçi və gimnastların andiçməsi olub. İdmançıların adından Azərbaycan gimnastı Selcan Maqsudova and içib.

Açılış mərasimində çıxış edən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Bakıda Batut Gimnastikası üzrə XXVIII Dünya yaş qrupları yarışlarının yüksək səviyyədə təşkili üçün Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya dərin təşəkkürünü bildirib. 2021-ci ildə gimnastika üzrə sonuncu mötəbər beynəlxalq yarışa Bakının evsahibliyi etməsindən məmnunluğunu bildirən MOK-un vitse-prezident deyib: "Otuz iki ölkədən 650 idmançının qatıldığı yarışların yüksək səviyyədə keçirilməsi, koronavirus pandemiyasının davam etdiyi dövrdə atletlərin, onların məşqçilərinin, KİV nümayəndələrinin təhlükəsiz və rahat fəaliyyəti üçün bütün zəruri tədbirlər görülüb. Uzun illərdir ki, Bakıda gimnastika növləri üzrə müxtəlif mötəbər yarışlar keçirilir. Bu gün açılışında iştirak etdiyimiz yarışlar da Azərbaycana, həmçinin dünyanın ən yaxşı federasiyalarından biri nüfuzunu qazanmış Azərbaycan Gimnastika Federasiyasına göstərilən etimadın təzahürüdür. Bu yarışlar Azərbaycanın mötəbər beynəlxalq turnirlərin mahir təşkilatçısı kimi nüfuzunun artırılması ilə yanaşı, idmanın bu növünün ölkəmizdə daha da populyarlaşmasına töhfə verəcək".

Bakıda müxtəlif dünya kubokları, Avropa və dünya çempionatlarının yüksək səviyyədə keçirildiyini diqqətə çatdıran Ç.Hüseynzadə 2015-ci ildə Azərbaycanda ilk Avropa oyunlarının təşkilinin ölkəmizdə idmanın, Olimpiya hərəkatının inkişafının göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, bütün bunlar Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevin səyləri nəticəsində mümkün olub.

Qeyd olunub ki, qarşıdakı üç gün ərzində Azərbaycanın paytaxtında batut, tamblinq və ikili minibatut üzrə yarışlarda gənc idmançılar mübarizə aparacaqlar. Fərdi proqramda qaliblərin müəyyənləşəcəyi bu yarışlar gələcəyin batut ulduzlarını müəyyənləşdirməklə yanaşı, gimnastikanın bu növünün inkişafında yeni, daha parlaq mərhələnin başlanğıcı olacaq.

Beynəlxalq Gimnastika Federasiyasının İcra Komitəsinin üzvü Əli Əl-Hitmi Batut Gimnastikası üzrə XXVIII Dünya yaş qrupları yarışlarının iştirakçılarını ali qurum adından salamlayıb. O, bu cür irimiqyaslı yarışların pandemiyaya baxmayaraq, yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan dövlətinə və Azərbaycan Gimnastika Federasiyasına minnətdarlığını bildirib.

Əli Əl-Hitmi Bakıda Batut Gimnastikası üzrə XXVIII Dünya yaş qrupları yarışlarını açıq elan edib.

Sonra gimnastika şousu nümayiş etdirilib.

Milli Gimnastika Arenasında dörd gün davam edəcək yarışda ölkəmiz 15 gimnastla təmsil olunur. Oğlanların yarışında İbrahim Mustafazadə, Ammar Baxşəliyev, Mehdi Əliyev, Maqsud Maqsudov, Nicat Mirzəyev, Əli Niftəliyev, Aleksey Karataşov, Elnur Məmmədov, Hüseyn Əsədullayev, Bilal Qurbanov, Adil Hacızadə və Tofiq Əliyev çıxış edəcəklər. Qızların mübarizəsində isə Səma Cəfərova, Şəfiqə Hümbətova və Selcan Maqsudova medallar uğrunda yarışacaqlar.

Yarışda 32 ölkədən 621 idmançı iştirak edir. Gimnastlar batut, tamblinq, ikili minibatut üzrə yarışlarda 11-12, 13-14, 15-16 və 17-21 yaş kateqoriyalarında mübarizə aparacaqlar. Turnirdə gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili minibatut üzrə proqramlarda çıxış edəcəklər. Bundan əlavə, komanda yarışında da qaliblər müəyyənləşəcək.

Yaş qrupları yarışlarında hər bir proqram üzrə təsnifat və final mərhələləri baş tutacaq. Qaydalara əsasən, bir iştirakçı bir neçə proqramda çıxış edə bilər.

# AMADA-nın direktorunun layihəsi Avropa Şurası Nazirlər Komitəsinin gündəliyinə daxil edilib

Azərbaycanın Milli Antidopinq Agentliyinin (AMADA) direktoru və Avropa Şurasında gender bərabərliyi üzrə məruzəçi Şəfəq Hüseynlinin müəllifi olduğu "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsi xüsusi əhəmiyyətli layihə kimi Avropa Şurası Nazirlər Komitəsi tərəfindən dəstəklənib.

AMADA-dan AZƏRTAC-a bildiriblər ki, bu, noyabrın 24-də Avropa Şurası Nazirlər Komitəsinin 1418-ci iclasında Ümumdünya Antidopinq Agentliyi üzrə xüsusi Avropa Komitəsinin (CAHAMA) 2022-2025-ci illər üzrə əsasnaməsinin təsdiq edilməsi zamanı qərarlaşdırılıb. Yeni əsasnaməyə əsasən, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən biri olan gender bərabərliyi üzrə ciddi addımlar atılmalıdır. Bunu nəzərə alaraq Ş.Hüseynlinin artıq başladığı gender bərabərliyi üzrə layihəsi ayrıca olaraq bu istiqamətdə görüləcək işlər kimi Nazirlər Komitəsi tərəfindən təsdiq edilib.

Qeyd edək ki, Avropa Şurasının müxtəlif komitələrinin əsasnamələrində, adətən, onların missiyası, vəzifələri və fəaliyyət istiqamətləri əks etdirilir. Gender bərabərliyi Avropa Şurasının Baş katib Mariya Peyçinoviç-Buriçin elan etdiyi prioritet istiqamətlərindən biri olduğundan Ş.Hüseynlinin layihəsi diqqəti xüsusilə cəlb edib və CAHAMA-nın əsasnaməsində yeganə layihə kimi yer alıb.

Nazirlər Komitəsi Ş.Hüseynlinin "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin əhəmiyyətini və aktuallığını nəzərə alaraq belə bir qərar qəbul edib və layihənin icrası ilə bağlı xüsusi hesabatın hazırlanması tapşırılıb. Bununla bağlı hesabat 2022-ci ildə Ş.Hüseynli tərəfindən Nazirlər Komitəsinə təqdim ediləcək.

Ş.Hüseynlinin cari ilin mayında CAHAMA-nın 53-cü iclasında təqdim etdiyi "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsi dəstəklənərək Avropa Şurası ilə birgə icrasına qərar verilib. Bununla bağlı Avropa Şurasının İdman Konvensiyaları üzrə sədri və katibliyi tərəfindən Azərbaycana xüsusi təşəkkür ifadə olunub.

Layihənin məqsədi antidopinq təşkilatlarında və antidopinq üzrə dövlətlərarası qurumlarda gender balansı haqqında məlumatın toplanmasını, təsis sənədlərinin və daxili qaydaların təhlil edilməsi və yekun hesabatın və tövsiyələrin hazırlanmasıdır.

Xatırladaq ki, Ş.Hüseynli 2019-cu ilin oktyabrında Avropa Şurasının gender bərabərliyi üzrə məruzəçisi seçilib.

◆ **İlə yekun vurulur**

# Hədəfə doğru daha bir addım

## İşğaldan azad olunmuş ərazilərin aqrar-sənaye potensialından istifadə qeyri neft-qaz sektorunun inkişafını sürətləndirəcək

Dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün həyata keçirilən genişmiqyaslı islahatlar davam edir. İlkin və əsas hədəf ölkənin neft-qaz asılılığını minimuma endirməkdir.

Bu istiqamətdə qəbul olunmuş sənədlərdə də qeyri-neft sənayesinin inkişaf perspektivləri müəyyən edilmiş, sənaye potensialının gücləndirilməsi və rəqabətqabiliyyətliyinin artırılması, həmçinin kadr potensialı təminatının yaxşılaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Həmin vəzifələrin icrası çərçivəsində qeyri-neft sənayesinə aid müxtəlif təyinatlı istehsalat müəssisələri tikilərək istifadəyə verilmiş, bu müəssisələrdə istehsal olunan məhsullar daxili və xarici bazarlara çıxarılmışdır. Bu isə ölkədən valyuta axınının qarşısını almaqla yanaşı, əlavə valyuta qazanılmasına imkan yaratmışdır.

Proses davam edərsə və dünyada fors-major hadisələr baş verməsə, Azərbaycanın 2030-cu ildə neft-qaz gəlirlərindən asılılığını tam aradan qaldırmaq mümkün ola bilər. Amma bu məqsədə çatmaq üçün qeyri-neft sektoruna daha çox sərmayə yatırmaq lazım gələcək. Yeri gəlmişkən, qeyd edək ki, statistikaya nəzər yetirdikdə son dövrlər bu sektora sərmayə qoyuluşunun artdığının şahidi oluruq. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə qeyri neft-qaz sektorunun inkişafına 6,1 milyard manatdan çox vəsait yönəlmişdir. Həmin vəsaitin 1,1 milyard manatdan artığı isə qeyri neft-qaz sənayesində istifadə edilmişdir. Ümumiyyətlə, hesabat dövründə əsas kapitala yönəldilən ümumi vəsaitin 52,5 faizi bu sahənin inkişafına sərf olunmuşdur.



Eyni zamanda ölkədə qeyri neft-qaz sənayesinin inkişafında önəmli rol oynayan texnoparklarda fəaliyyət göstərən sahibkarlara müxtəlif güzəştlər edilir ki, onlar daha çox sərmayə qoyuluşuna maraq göstərsinlər. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, eləcə də istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular ƏDV-dən, həmçinin 7 il müddətinə gömrük rüsumundan azad olunmuşlar. Bunun nəticəsidir ki, indiyədək sənaye zonalarında 89 sahibkarlıq subyektinə rezidentlik statusu verilmiş və onlardan 55-i fəaliyyətə başlamışdır. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,2 milyard manatdan çox investisiya yatırılmış və 9500-dək yeni iş yeri yaradılmışdır.

Sözsüz bütün bunlar nəticəsiz qalmır. Məsələn, sənaye zonaları üzrə indiyədək 5 milyard manatlıq məhsul istehsal edilmişdir ki, bunun da 1,4 milyard manatlığı ixrac olunmuşdur. Özü də bu istiqamətdə dinamik artım müşahidə edilir. Statistik göstəricilərə əsasən, əgər ötən ilin 9 ayında sənaye zonalarında 977 milyon manatlıq məhsul istehsal edilmişdisə, cari ilin eyni dövründə bu rəqəm 56,7 faiz artmışdır, yəni istehsal olunan məhsulların dəyəri 1,5 milyard manat olmuşdur. İxrac isə ötən ilin analoji dövrü ilə müqayisədə 2 dəfə artaraq 545 milyon manatlığa çatmışdır. Bununla cari ilin 9 ayında 1,5 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,2, qeyri-neft sənayesində məhsulların ixracında 25,9 faiz olmuşdur.

Bu gün Azərbaycanın sənaye məhəllələrində istehsal olunan məhsullar dünyanın 30-dan çox ölkəsinə ixrac edilir. Məhsullarımızın dünya bazarına çıxması və ciddi rəqabət şəraitində özünə alıcı tapmasının əsas səbəbi keyfiyyətdir. Amma indi dünyada məhsul satışını şərtləndirən iki əsas amil var - keyfiyyət və qiymət. Bizim sənaye zonalarında innovativ və yüksək texnologiyalardan istifadə edilməsi məhsullarımızın keyfiyyətinə müsbət təsir göstərir. Qiymətin isə münasib olmasının əsas səbəbi həmin məhsulların istehsalında yerli xammaldan istifadə olunmasıdır.

Başqa bir mühüm fakt, ölkəmizdə sənaye zonalarının yaradılması planlı şəkildə həyata keçirilir. Çalışılır ki, belə sənaye mərkəzləri ölkənin daha çox bölgəsində yaradılsın, regionlarla paytaxt arasındakı mövcud fərq aradan qaldırılsın. Hazırda Bakı ilə yanaşı, Sumqayıt və Mingəçevirdə sənaye parkları fəaliyyət göstərir. Bir çox rayonlarda isə texnoparkların kiçik "qardaş"ı olan sənaye məhəllələri yaradılıb.

İndi belə zonaların işğaldan azad olunan ərazilərdə salınmasına start verilib. Prezident İlham Əliyevin 28 may 2021-ci il tarixli Sərəncamı ilə Ağdam Sənaye Parkının yaradılmasına başlanılıb. Bununla yanaşı, Cəbrayıl rayonunun Soltanlı kəndi ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması barədə qərar qəbul olunub. Şübhəsiz ki, yaxın gələcəkdə işğaldan azad olunmuş digər ərazilərdə də belə park və məhəllələr yaradılacaq. Bütün bunlar isə bölgənin iqtisadi potensialından daha səmərəli istifadə etməyə və ölkəmizin ixrac imkanlarını daha da genişləndirməyə imkan yaradacaq, doğma yurdlarına qayıdan soydaşlarımızın işlə təmin olunmasına etibarlı təminat verəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Jurnalist araşdırması

# Qiymətlər bahalaşır...

Əvvəllər qiymət artımları ilə, adətən, bayramlar ərəfəsində rastlaşırdıqsa, indi bu artımlar hər ay, bir sıra məhsullarda isə demək olar ki, hər həftə, hətta hər gün baş verir. Bunun nəticəsidir ki, son aylar ərzində Azərbaycanda həm ərzaq, həm də qeyri-ərzaq məhsullarının qiymətlərində artım müşahidə edilir.

Xüsusi qeyd edilməlidir ki, bəzi sahibkarlar məhsulların qiymətlərinin birdən-birə, nəzərəçarpan dərəcədə artırılması üsulundan çəkinərək qiymətlərin hər gün az-az, qəpik-qəpik qaldırılması prinsipinə üstünlük verirlər. İlk baxışdan bu artımlar kiçik məbləğdə olduğu üçün gözə çarpmaya bilər. Amma ay ərzində baş verən belə artımları toplum halda hesablayanda məhsulun qiymətinin əvvəlki aylara nisbətən hiss edilən səviyyədə bahalaşdığını görmək olur.

## İdxal məhsullarının qiyməti 25 faizədək artıb

Bahalaşmanın baş verdiyi rəsmi məlumatlarda da bu öz təsdiqini tapır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin oktyabr ayında istehlak qiymətləri indeksi (istehlak səbətinə daxil olan məhsul və xidmətlərin dəyərinin dəyişməsini xarakterizə edən nisbi göstərici) sentyabr ayı ilə müqayisədə 101,6 faiz, 2021-ci ilin yanvar-oktyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 105,7 faiz təşkil edib. 2021-ci ilin oktyabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi sentyabr ayı ilə müqayisədə 102,8 faiz, 2021-ci ilin yanvar-oktyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 106,7 faiz olub.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirir ki, yanvar-sentyabr aylarında idxal məhsullarının qiyməti 21, bəzi məhsullarda isə 25 faiz artıb. O, artım səbəbini bazarda tələblərin çoxalması, istehsal xərclərinin yüksəlməsi nəticəsində dünya bazarlarında artan qiymətlərin Azərbaycanın istehlak indeksinə birbaşa təsiri, ticarət tərəfdaşımız olan ölkələrdə yüksək inflyasiyanın müşahidə olunması ilə izah edir.

Ölkəmizdə inflyasiyanın 4,8 faiz olduğunu nəzərə çatdıran S.Həsənova deyir ki, cari ildə inflyasiyanın aşağı düşməsi gözlənilir. Növbəti ildə qiymətlərin builki kimi kəskin artımı proqnozlaşdırılmır. İnflyasiyanın 4 faiz ətrafında olması planlaşdırılır.

## Enerji daşıyıcılarının bahalaşması inflyasiyanı sürətləndirir

Mərkəzi Bankın sədri Elman Rüstəmov gələn ilin ortalarından inflyasiya səviyyəsinin aşağı düşməyə başlayacağı proqnozunu verib. Ancaq bunu da əlavə edib ki, ərzaq inflyasiyası daha uzun müddətli ola bilər. Əsas səbəblərsə quraqlıq və tələbatın artmasıdır. O, qiymət artımının qarşısının alınması üçün azad rəqabət prinsiplərinin genişləndirilməsini vacib sayıb.

Mərkəzi Bank öz məlumatında dünya üzrə ərzaq qiymətlərinin yüksəlməsinin ərzaq inflyasiyasına ciddi təsir göstərdiyini bildirib. Qurum açıqlayıb ki, dünyada enerji daşıyıcılarının sürətlə bahalaşması enerji idxal edən ölkələrdə, o cümlədən Azərbaycanın ticarət tərəfdaşı olan enerji idxalçılarında inflyasiya proseslərinin sürətlənməsinin əsas səbəblərindən biridir.

MB-nin oktyabrda açıqladığı rəsmi statistikaya görə, sentyabrda aylıq inflyasiya 1,8 faiz, 12 aylıq inflyasiya 8,5 faiz olub. Orta illik inflyasiya isə yanvar-sentyabr aylarında 5,2 faiz qeydə alınıb. Dövlət tənzimlənməsi tətbiq edilən qiymətlər, həmçinin mövsümə həssas kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan orta illik baza inflyasiya 3,3 faiz təşkil edib.

## Bəzi məhsulların qiyməti kommunal xidmət tariflərinin yüksəlməsi nəticəsində artıb

Maliyyə naziri Samir Şərifov qiymətlərin qalxmasında rüsumların məbləğinin artırılması amilinin olmasını qəbul etmir. Nazir dövlət rüsumlarının qalxması səbəbindən ərzaq məhsullarının qiymətlərinin artması barədə olan fikirləri tamamilə əsası olmayan uydurma adlandırıb. S.Şərifov dövlət rüsumlarında ərzaq məhsullarının qiymətinə təsir edəcək bir qəpik də olsun artımın olmadığını söyləyib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun fikrincə, qiymət artımlarının baş verməsi həm daxili, həm də xarici səbəblərdən qaynaqlanır. Bu gün dünya bazarında müşahidə edilən qiymət artımları Azərbaycana inflyasiyasının idxal olunmasına imkan yaradır. Azərbaycan istehlak etdiyi məhsulların təxminən 60 faizini idxal etdiyi üçün dünya bazarında baş verən qiymət artımları birbaşa yerli istehlak bazarına təsir göstərir.

## Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti isə hələ ki araşdırma aparır

Bu amilin son aylardakı qiymət artımının səbəblərindən biri olması qənaətində olan V.Bayramov hesab edir ki, bir sıra yerli məhsulların qiyməti onların maya dəyərinin bahalaşması, xüsusilə kommunal xidmətləri tariflərinin yüksəlməsi üzündən artıb. Amma bəzən süni qiymət artımı da müşahidə edilir. Bəzi hallarda yerli istehsal olan, amma maya dəyərində ciddi dəyişiklik olmayan məhsulların qiymətlərində bu və ya digər formada süni artımlar edilir: “Dövlət Statistika Komitəsinin rəsmi məlumatları təsdiq edir ki, ərzaq məhsullarının qiymətlərində artımlar daha intensiv şəkildə baş verir. Biz rəsmi statistikaya istinad etsək, görərik ki, 2021-ci ilin geridə qalan aylarının hər birində əvvəlki aylara nisbətən qiymət artımları müşahidə edilib. Hədəf 4 faiz olsa da, son rəqəmlər göstərir ki, yerli inflyasiya səviyyəsi çoxdur”.

## Bədbin proqnoz: dünya üzrə qiymət artımları davam edəcək

V.Bayramov əlavə edir ki, 2022-ci ildə, xüsusilə gələn ilin birinci yarısında da dünya bazarında qiymətlərin artacağı proqnozlaşdırılır. Bunun nəticəsində Azərbaycanın istehlak bazarında müəyyən qiymət artımlarının olacağı gözlənilir. Növbəti aylarda tənzimlənən qiymətlərdə dəyişiklik olmasa belə idxal inflyasiyası müşahidə olunacaq.

Deputatın fikrincə, Azərbaycanda qiymət artımının qarşısının alınması, qiymətlərin optimallaşdırılması üçün müəyyən alətlərdən istifadə edilməyə çalışılır. Amma qiymət artımlarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, qiymətlərin optimallaşdırılması və xaricdə baş verən qiymət artımlarının Azərbaycan bazarına təsirlərinin minimumlaşdırılması olduqca vacibdir. Buna nail olmaq üçün uzunmüddətli dövrdə yerli istehsalın payı artırılmalıdır. Yerli istehsal genişlənərsə, bu, nəticə etibarilə qiymət artımının qarşısının alınmasına gətirib çıxarar. Vüqar Bayramov hesab edir ki, növbəti illər üçün iqtisadi və sosial hədəflərdən biri yerli istehsalın təşviqi olmalıdır: “Bu gün dünya bazarında müşahidə edilən qiymət artımının səbəblərindən biri məhsul qıtlığının yaranmasıdır. Ərzaq məhsullarına tələbat artır. İlkin qiymətləndirmələrə görə, 2025-ci ildən sonra dünya bazarında ərzaq qıtlığı arta bilər. Tələb olsa da, təklif olmaya bilər. Buna görə də ən uğurlu yol yerli istehsalın, xüsusilə yerli ərzaq məhsulları istehsalının tələb və istehlakdakı payını artırmaqdır. Ərzaq məhsullarının istehlakında yerli istehsalın payının növbəti illərdə 80 faizə qaldırılmasına ehtiyac var. Bu halda xarici bazardakı təsirlərin Azərbaycan bazarına təsirlərini minimumlaşdırmaq olar”.

## Rəqabət olsaydı, qiymətlər bu qədər qalxmazdı

İqtisadçı Əkrəm Həsənov qiymət artımında təbii amillərin daha çox rol oynadığını, süni amilin isə o qədər böyük əhəmiyyət kəsb etmədiyini düşünür. Onun sözlərinə görə, qiymət artımına səbəb olan təbii amillərdən biri pandemiyanın davam etməsidir. Pandemiya dövründə ərzaq məhsullarının qiymətinin bahalaşması, onların çoxunun xaricdən idxal edilməsi qiymətin yüksəlməsinə səbəb olub. Qiymət artımına səbəb sayılan iki əsas təbii amildən biri pandemiya olsa da, digər amil kommunal xidmətlərin, benzinin qiymətinin qalxmasıdır: “Sözsüz ki, bu sahə üzrə tariflərin artması sahibkarların xərclərini artırdığı üçün onlar satdıqları məhsulların qiymətlərini bahalaşdırırlar. Ancaq istehsal etdiyi məhsulun maya dəyəri bahalaşmayan bəzi sahibkarlar qiymətləri süni olaraq artırıblar”.

O, torpaqların, evlərin qiymətlərinin bahalaşmadığı, ərzaq məhsullarının satışında qiymət artımının daha çox müşahidə edilməsi qənaətindədir. İqtisadçı belə düşünür ki, əgər rəqabət şəraiti olsaydı, qiymətlər bu qədər qalxmaya bilərdi: “Taksilər qiymətləri qaldıra bilmədilər, çünki taksi xidmətləri göstərənlərin çoxluğu, rəqabətin olması qiymət artımına imkan vermir. Ancaq etiraf edək ki, Azərbaycanda sağlam rəqabət sahəsində hələ də müəyyən problemlər var. Ərzaq və digər istehsal sahələrində tam sağlam rəqabət olsaydı, qiymətlər bəlkə də qalxmazdı. Bəzi istehsalçılar bilirlər ki, Azərbaycanda istehlakçının başqa yolu yoxdur, buna görə də o, məhsulun qiyməti baha olsa belə onu alacaq”.

Ə.Həsənov hazırkı vəziyyətdən çıxış yolu kimi təklif edir ki, dövlət tərəfindən tənzimlənən xidmətlərin qiymətləri 1 il müddətinə artırılmamalıdır. Digər tərəfdən, qiymət artımlarının baş verməsini Mərkəzi Bank da pul siyasətində nəzərə almalıdır, artıq prinsip etibarilə də nəzərə almağa başlayıb. Qiymət artımlarının müşahidə edilməməsi üçün Azərbaycanda qanunların aliliyi, məhkəmələrin ədalətliliyi, inhisarçılığın ləğvi, sağlam rəqabətin təşkili təmin olunmalıdır: “15 ildir ki, Rəqabət Məcəlləsi qəbul edilmir. Azərbaycanda inhisarçılıq problemi var. Bu məsələ köklü həll edilməsə, qiymət artımı yenə də müşahidə ediləcək, qeyri-neft sektoru geniş inkişaf etməyəcək. İqtisadiyyat nə qədər inkişaf edərsə, qiymətlər bir o qədər aşağı düşəcək, insanların gəlirləri də çoxalacaq. Bu gün insanların gəlirləri qiymət artımı ilə düz mütənasiblik təşkil etmir”.

## Qiymət artımının qarşısını almaq mümkündür

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov deyir ki, 2021-ci ilin ötən aylarında strateji sahələrdə tariflər artırıldı. Məsələn, benzinin, təbii qazın, suyun, elektrik enerjisinin tariflərinin artırılması ərzaq məhsullarının qiymətlərinin maya dəyərində bu və ya digər şəkildə özünü göstərdi.

Amma deputat qiymət artımının demək olar ki, hər gün baş verməsini də qeyri-normal sayır və burada subyektiv amillərin olmasını da istisna etmir: “İki cür qiymət artımı özünü göstərir ki, onların biri obyektiv, digəri subyektiv qiymətlərdir. Obyektiv qiymət artımları idxal olunan məhsullarda müşahidə olunur. Belə ki, xarici ölkələrdən idxal edilən məhsulların qiymətləri dünya bazarında yüksəkdirsə, Azərbaycanda yüksək olacaq. Bunu da nəzərə almaq lazımdır ki, həmin məhsulların üzərinə müəyyən vergilər və s. daxil edilir”.

V.Əhmədovun bildirdiyinə görə, Azərbaycanda istehsal olunan bir sıra məhsulların tərkibindəki bəzi komponentlər xaricdən idxal olunur və bu da qiymətin bahalaşmasına səbəb olur. Ancaq elə sahibkarlar var ki, məhsulun maya dəyəri bahalaşmasa belə yanacağın qiymətinin artdığını görən kimi qiymətləri özbaşına artırıblar. Belə yerli məhsulların qiymətinin qaldırılmasının qarşısının alınması üçün tədricən həmin komponentlərin ölkəmizdə istehsalına başlanılmalıdır. Azərbaycanda qida məhsullarının istehsalı müəssisələrinin sayı kifayət qədər olmadığı üçün yeni emal müəssisələri tikilməli, ölkənin özünü ərzaqla təmin etməsi üçün tələb olunan işlərin icrası sürətlənməlidir. Qiymət artımın qarşısının alınması üçün görülməsi lazım olan digər tədbir Azərbaycanda daxili bazarda ədalətli rəqabətin təmin edilməsidir.

## Rəqabət Məcəlləsinin qəbulu niyə gecikir?

V.Əhmədov hesab edir ki, Azərbaycanda daxili bazarda haqlı deyil, haqsız rəqabət var. Bunun qarşısının alınması üçün Rəqabət Məcəlləsi qəbul olunmalıdır: “Mən şəxsən Baş nazirdən xahiş etdim ki, bu məcəllə Milli Məclisə təqdim edilsin və onun üzərində işləyək. Həmin məcəlləni qəbul etsək, bazarda qiymətlər stabilləşər, hətta 20-30 faiz aşağı düşə bilər. Bazara da artıq bir-iki nəfər deyil, kim istəsə məhsul gətirib sata bilər”.

Deputatın qənaətinə görə, Azərbaycanda inhisarçılıq qiymət artımının ən ciddi səbəblərindən biridir. Bəzən möhtəkir sahibkarlar heç bir əsas olmadan qiyməti artırırlar. Buna görə də qiymət artımına qarşı ciddi nəzarət mexanimləri həyata keçirilməlidir. Hazırda Azərbaycanda subyektiv qiymət amillərinin qarşısının alınması üçün tədbirlərin görülməsinə baxmayaraq, onların daha da sərtləşdirilməsinə ehtiyac var: “Qiymət artımı elə bir həddə olmalıdır ki, əhalinin bütün təbəqələri üçün əlçatan olsun”.

## Mikayıl Cabbarovun etirafı: “Mövcud qiymətlər son illərin ən yüksək həddindədir”

Ərzaq məhsullarının qiymətlərində illər üzrə bahalaşma müşahidə edilsə də, onlar son dövrlərdə heç bir zaman indiki qədər yüksək olmayıb. Qiymətlərə nəzər yetirsək görərik ki, 2008-ci ildə bir “zavod” çörəyinin qiyməti 20 qəpik, bir kiloqram un 40 qəpik, bir kiloqram ət 6 manat, bir ədəd yumurta 12 qəpik, 1 kiloqram kərə yağı 6 manat olduğu halda, hazırda bu məhsulların qiymətləri müvafiq olaraq, 40 qəpik, 60 qəpik, 13-14 manat, 20 qəpik, 18-20 manatdır.

Ərzaq məhsullarının hazırkı qiymətlərinin son 12 ilin ən yüksək qiymətləri olduğunu İqtisadiyyat naziri Mikayıl Cabbarov da deyib: “Son 12 ildə dünya bazarında qida qiymətləri nəzərəçarpacaq dərəcədə artıb və bunu biz də idxal etdiyimiz qida məhsullarında və inflyasiyanın səviyyəsində hiss edirik. Hətta Azərbaycanda istehsal olunan məhsullar belə ixrac imkanları olduğuna görə inflyasiya təzyiqi yaradır. Təəssüf ki, qiymət siyasətində səhvlər başqa bir təhlükəli nəticəyə - məhsulun, malın qıtlığına və yaxud, ümumiyyətlə, mövcud olmamasına gətirib çıxarır. Mən bədbin proqnozlar vermək istəmirəm, amma güman edirəm ki, bu qış bir sıra ölkələrdə bu problemləri görəcəyik. Həmin problem yalnız qida ilə məhdudlaşmayacaq, enerji bazarına və ona oxşar sahələrə təsir edəcək. Elə amillər var ki, burada seçim pis və daha pis arasındadır”.

M.Cabbarov problemlə mübarizənin bir istiqaməti kimi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyətini daha da gücləndirməyə çalışdıqlarını söyləyib.

## Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin araşdırma ilə məhdudlaşan yarımçıq fəaliyyəti

Bəs Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti öz fəaliyyətini necə gücləndirir və bu problemin həllinə necə yardım göstərir?

Xidmətdən sorğumuza verilən cavabda bildirilir ki, malların (işlərin, xidmətlərin) qiymətləri liberal bazar iqtisadiyyatı şəraitində rəqabət prinsiplərinə uyğun olaraq, tələb-təklif əsasında formalaşır. Texnoloji xüsusiyyətlərdən asılı olaraq rəqabətin mümkün olmadığı və sosial əhəmiyyət kəsb edən bir sıra malların (işlərin, xidmətlərin) qiymətləri isə dövlət tərəfindən tənzimlənir: “Dövlət tərəfindən tənzimlənməyən malların (işlərin, xidmətlərin) qiymətlərinin dəyişməsi zamanı rəqabət mühitinin pozulması hallarının aşkar edilməsi və qarşısının alınması məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən bazarda müxtəlif məhsulların qiymətinin mütəmadi monitorinqi aparılır və bazar araşdırmaları həyata keçirilir. Daxili bazarda aparılan təhlillər və müşahidələrə əsasən, bir sıra məhsulların qiymət artımının səbəbləri kimi idxal olunan məhsulların idxal bazarında qiymətinin artması, idxal xammal əsasında istehsal olunan bir sıra məhsulların xammallarının dünya bazarında bahalaşması, məhsulun maya dəyərini formalaşdıran bir sıra xərclərin (daşınma, enerji, xammal və s.) artması, əsas idxal bazarları olan bir sıra ölkələrin öz daxili bazarında qiymət sabitliyini təmin etmək, eyni zamanda ərzaq ehtiyatlarını yaratmaq istiqamətində reallaşdırdıqları intervensiyalardır”.

Mücərrəd terminli bu uzun cümlələrdən aydınlaşan yeganə qənaət odur ki, xidmət hələ ki araşdırmalar aparır. Yəni fəaliyyəti ancaq bununla məhdudlaşır. İqtisadiyyat nazirinin bu xidmətin funksiyalarının daha da gücləndiriləcəyi vədini həyata keçərsə, yəqin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti də Prezident tərəfindən müəyyənləşən fəaliyyət istiqamətlərinin icrasına başlayar...

Hazırda yalnız Azərbaycanda deyil, inkişaf etməkdə olan ölkələrin demək olar ki, hamısında inflyasiya gözləntiləri hədəfdən yuxarıdır. Hələlik verilən proqnozlar inflyasiya gözləntilərinin 2022-ci ilin sonuna qədər hədəflərə yaxınlaşacağını ehtimal edir. Bu isə o deməkdir ki, artan inflyasiya fonunda qiymətlərin əhalinin yaşayışına daha ciddi şəkildə təsir göstərməməsi üçün qabaqlayıcı və tənzimləyici tədbirlərin qısa zaman ərzində görülməsinə ehtiyac var.

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***

# Azərbaycan «yaşıl enerji» sahəsində beynəlxalq əməkdaşlığını genişləndirir

### Dünyanın tanınmış şirkətlərinin bu sahədəki layihələrimizə marağı artır



Bərpaolunan enerjidən istifadə getdikcə bütün dünyada özünə daha geniş yer alır. Beynəlxalq Enerji Agentliyinin bildirdiyinə görə, dünyanın enerji sistemi “xalis sıfır” emissiyalar cığırı ilə irəliləyərsə, əsrin ortasında elektrik enerjisi istehsalının 90 faizə qədəri bərpaolunan enerji mənbələrinin payına düşər. Bunun da 70 faizi günəş və külək enerjisi mənbələrindən alınar. Azərbaycanda da bu məsələyə xüsusi diqqət yetirilir və ölkəmizdə bərpaolunan enerji sahəsinin inkişafı üçün əlverişli şərait var.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkəmizdə “yaşıl eneryi”yə geniş yer verilməsi də müəyyənləşdirilib. Belə ki, hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payının indiki 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırılmasıdır.

BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru “yaşıl enerji” zonası elan etdiyini xatırlatmış, ümumiyyətlə, Azərbaycanda bərpaolunan enerjinin inkişafına böyük diqqət göstərildiyini bir daha vurğulamışdır. Şərqi Zəngəzur bölgəsində bir xarici şirkətlə əməkdaşlıq şəraitində tikiləcək 240 meqavat gücündə günəş elektrik stansiyasının Azərbaycanın azad edilmiş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacağını bildirmişdir. Dövlət başçısı digər beynəlxalq enerji şirkətlərini də azad olunmuş ərazilərimizdə “yaşıl enerji” layihələrinə sərmayə qoymağa dəvət etmişdir.

İşğaldan azad edilmiş ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi üçün zəngin təbii şərait mövcuddur. Odur ki, indi orada bu enerji növünün tətbiq edilməsinə dair konsepsiya hazırlanır. Bu konsepsiya Qarabağda enerji istehsalının tam şəkildə bərpaolunan enerji vasitəsilə həyata keçirilməsinə imkan verəcək. Təsadüfi deyil ki, Azərbaycan dövlətinin bu məqsədinin həyata keçirilməsinə dəstək verən xarici şirkətlərin də sayı getdikcə artır.

Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji” zonasının yaradılması layihəsi çərçivəsində Yaponiyanın TEPSCO şirkəti cəlb edilməklə ərazilərin inkişafı və məskunlaşma variantları üzrə müxtəlif enerji tələbatı və təchizatı ssenarilərinə baxılıb. Eyni zamanda bu bölgələrdə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpaolunan enerji potensialının öyrənilməsi, mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının və həmçinin su anbarlarında, kiçik çaylarda su-elektrik stansiyalarının tikilməsi istiqamətində davamlı araşdırmalar aparılır.

Cari ilin fevral ayında Energetika Nazirliyi və Böyük Britaniyanın bp şirkəti arasında iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın regionlarında və şəhərlərində bərpa olunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə anlaşma memorandumu imzalanmışdır. Daha sonra işğaldan azad olunmuş ərazilərdə 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsinin imzalanması baş tutmuşdur. bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bu məsələ ilə bağlı demişdir: “Azərbaycan hökuməti ilə bu sazişi imzalamaqla biz öz müvafiq enerji keçidi hədəflərimizi dəstəkləyən bir imkana doğru birgə işimizdə irəli addım atmış oluruq. Növbəti onillik ərzində bp dünya üzrə bərpaolunan enerji işlənməsinə qoyduğu sərmayəni əhəmiyyətli dərəcədə artırmaq niyyətindədir və artıq uzunmüddətli və uğurlu tərəfdaşlıq qurduğu yerlərdə bu yönümdə yaranan imkanları araşdırır. Azərbaycanda bizim otuz ilə yaxın enerji layihələrini təhlükəsiz və etibarlı şəkildə həyata keçirmək təcrübəmiz var. Düşünürük ki, günəş enerjisi layihəsi imkanı üzrə başladığımız birgə iş yeni bir tərəfdaşlıq sahəsinə yol aça bilər və bu yeni tərəfdaşlıq çərçivəsində bp Azərbaycanda enerji keçidinə mühüm töhfələr verə bilər”.

Bu il noyabrın 11-də Prezident İlham Əliyev bp qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edərkən söhbət zamanı toxunulan məsələlərdən biri də məhz “yaşıl enerji” barədə olmuşdur. bp-nin bərpaolunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edilmişdir, bu sahədə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirilmişdir. Şirkətin işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji ilə bağlı planlarının əhəmiyyəti vurğulanmışdır. Bunun sözügedən bölgələrdə “yaşıl enerji” ərazisinə transformasiya işinə xidmət göstərəcəyinə ümidvarlıq ifadə olunmuşdur. Həmçinin qeyd edilmişdir ki, bu işlər böyük potensiala malikdir. Xüsusilə nəzərə alınsa ki, Azərbaycan qonşu ölkələrlə şaxələndirilmiş enerji bağlantılarına malikdir və bizdə tələbatdan artıq enerji istehsal olunur.

Məlum olduğu kimi, bərpaedilən enerji sahəsinin inkişafı üçün Azərbaycanın müxtəlif şəhər və rayonlarında imkan var. Məsələn, Bakının və Abşeron yarımadasının təbiəti külək enerjisindən istifadəyə şərait yaradır.

Norveçin “Equinor” şirkəti də ölkəmizlə elə külək enerjisi potensialının reallaşdırılması istiqamətində əməkdaşlığı genişləndirmək istəyir. Oktyabr ayında Energetika Nazirliyində “Equinor”un Rusiya və Azərbaycan üzrə baş vitse-prezidenti, Rusiya üzrə rəhbəri Tore Losetin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bu barədə də bəhs olunub. Eləcə də şirkətin enerji transformasiyası prosesində roluna və bərpaolunan enerji sahəsindəki fəaliyyətinə toxunulub. Formalaşmış uğurlu əməkdaşlığın bərpaolunan enerji sahəsində, xüsusilə ölkəmizin dənizdə külək enerjisi potensialının reallaşdırılması istiqamətində genişləndirilməsinin mümkünlüyü qeyd edilib.

Almaniyanın “Uniper” şirkətinin qaz təchizatı və mənşəyi üzrə baş vitse-prezidenti Uve Fipin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə də bərpaolunan enerji məsələsi əsas mövzulardan biri olub. Belə ki, ölkəmizdə “yaşıl enerji”dən istifadə sahəsində həyata keçirilən layihələr və gələcək planlar haqqında məlumat verilib. O cümlədən Xəzər dənizinin Azərbaycana məxsus hissəsinin neft və qaz ehtiyatları ilə yanaşı, külək enerjisi potensialı ilə də zəngin olduğu diqqətə çatdırılıb. Ölkəmizin dənizdə külək enerjisi potensialından istifadə üzrə yol xəritəsinin hazırlanmaqda olduğu bildirilib. Gələcəkdə bu resurs hesabına “yaşıl elektrik”, “yaşıl hidrogen”, “yaşıl ammonyak” istehsalı və ixracı perspektivləri qeyd edilib. Bu istiqamətdə imkanların öyrənilməsi məqsədilə beynəlxalq əməkdaşlığa hazırlıq ifadə olunub.

Azərbaycan Səudiyyə Ərəbistanı Krallığı ilə strateji əməkdaşlığı gücləndirmək niyyətindədir ki, bu da bir neçə iqtisadi sahəni əhatə edir. İki ölkə arasında iqtisadi, xüsusən də enerji sahəsində əməkdaşlıq gücləndirilir. Səudiyyə Ərəbistanı və Azərbaycan bərpaolunan enerji ilə bağlı bir sıra əməkdaşlıq layihələrində iştirak edəcəklər. Məlum olduğu kimi, həmin ölkənin “ACWA Power” şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisi üzrə müqavilə imzalanıb. Bu, təkcə Azərbaycanda deyil, həmçinin regionda bərpaolunan enerji mənbələrinin inkişafı baxımından önəmli bir layihədir.

Bütün bunlar göstərir ki, ölkəmiz bu sahədə də mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yarada biləcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***





# Mədəniyyət





● Klassik irsimiz



**Molla Pənah Vaqif XVIII əsr Azərbaycan poeziyasının böyük klassikidir. Şairin yaradıcılığı ilə şeir tariximizin yeni səhifəsi açılır. O, ədəbiyyata xəlqi və milli şeirin, ilkin realizmin böyük nümayəndəsi kimi daxil olur. Vaqif klassik şeirin köhnəlmiş ənənələrini qırır, onu yeni realist inkişaf yoluna salır, xalq ruhuna, xalq zövqünə yaxınlaşdırır. Vaqiflə poeziyamızda nikbin əhvali-ruhiyyə, həyati, dünyəvi gözəllərə pərəstiş hissləri qüvvətlənir. Lirika tariximizdə ürək parçalayan Füzuli qəzəlindən sonra eşqin nəşəsini tərənnüm edən Vaqif qoşmaları yaranır.**

# Vaqif yaradıcılığı iki ədəbi mərhələnin qovşağında

....Vaqif bədii dilimizi yeni yüksəliş pilləsinə qaldırır. Onun əsərlərində Azərbaycan dili bütün gözəlliyi, zənginliyi ilə təzahür edir. XVIII əsr şeirimizdə xəlqiliyə, realizmə doğru mütərəqqi meyillər Vaqif yaradıcılığında kamala çatır, ədəbi məktəb cərəyan səviyyəsinə yüksəlir və ədəbiyyat tariximizə "Vaqif ədəbi məktəbi" adı ilə daxil olur.

H.Araslı Vaqif yaradıcılığının lirik poeziyanın artıq müəyyən inkişaf yolu keçib formalaşmaqda olan bir dövrünə təsadüf etdiyini də qeyd edir: "Vaqif formalaşmaqda olan lirik şeiri yeni realist inkişaf yoluna salaraq, onu xalq ruhuna, xalq zövqünə yaxınlaşdırmış, özünə qədərki klassiklərdən fərqli bir yolla istiqamətləndirmişdir". Lakin bu o demək deyil ki, o, klassikadan faydalanmamışdır. Böyük tədqiqatçı realist şeirin ilk nümunələrini onun adı ilə bağlayır.

Vaqifin şeir və qəzəliyyatının Azərbaycan türkcəsinə ziyadə xoş gəlməsi dil ünsürünə bağlıdır. Azərbaycan dilinin rəvanlığı, sadəliyi, canlı, aydın, səmimi, xalq dilinə və ruhuna uyğun, qulağayatımlı söz və ifadələrin ədəbiyyata gətirilməsinə, həmçinin öz sənət mehvərini zamanın tələb və ruhuna uyğunlasdırılmasına bağlıdır. Unutmayaq ki, hər şairin özünəməxsus üslubu olduğu kimi, dövrün ədəbi üslubunun da yazılan şeirlərə öz təsiri vardır. Şairin iç dünyasının nikbinliyi, həyat və gözəllik sevərliyi, şeir növlərinin müxtəlifliyi və zənginliyi onun yaddaşlarda həkk olunan sənət nümunələri yaratmasının başlıca səbəblərindəndir.

Şair ərəb, fars və türk dillərində yazılmış klassik ənənəvi mövzuları o dönəmə xas şəkildə öz şeirinə, qəzəllərinə gətirsə də, müxəmməs, qəzəl və qoşmalarının ümumi axarını Azərbaycan dilinin sadə və aydın dili üstündə qurur.

Vaqif yaradıcılığı öz şəkli, xüsusiyyətləri etibarı ilə yeni və zəngindir. O, istər aşıq şeiri şəklində yazdığı qoşmalarda, istərsə də klassik şeirin təsirində yaratdığı qəzəl və müxəmməslərdə xalq şeirinin ruhunu qədim ədəbi irsin mütərəqqi cəhətləri ilə uyğunlaşdıraraq yeni və orijinal bir tərzdə canlandırır.

"Poeziya tariximizdə Füzuli mərhələsindən sonra yeni dövr Vaqiflə başlayır. Şair klassik şeirin əsas motivi olan sevgi lirikasına belə təzə bir məna, təzə bir rövnəq verir... O, "Məhəbbət pərisi"ni uzaq göylərdən torpağa endirir, real, canlı gözəli sevərək, təbii eşq haqqında mahnılar oxuyur. Həyatdan, şifahi aşıq şeirindən gələn şən və şux bir nikbinlik, yüksək dünyəvilik bu lirikanın əsas səciyyəvi cəhətlərini təşkil edir. Onun əsas şeirləri - qoşmaları, qəzəlləri, müstəzadları, müxəmməs və müəşşərləri əsasən bir nöqtədə birləşir: hamısı məhəbbətdən, hamısı gözəldən bəhs edir":

Ey maral baxışlı, sona sığallı,
Nə gözəldir səndə o qara tellər,
Kəmənd kimi tökülübdür gərdənə,
Dönübdür sərasər şahmara tellər.

Nə gözəl yaraşıb al, yanağına,
Nazikdir, dəyməsin əl yanağına;
Zülfü buxağına, gül yanağına,
Nə bənəfşə bənzər, nə lalə, Yetər.

Nümunə gətirdiyimiz şeir parçasında, həqiqətən də, dünyəvi bir sevgi, gözəllik tərənnüm edilir. Lakin Vaqifin elə qoşmaları da vardır ki, dünyəvi sevgi, nəticə etibarı ilə dərd bilən məhəbbət əhliylə qiyaslandırılır.

Bir gözəl ki, şirin ola binadan,
Yüz il getsə onun dadı əksilməz,
Təzəliyi, köhnəliyi bir olur,
Gövhər tək qiymətdə adı əksilməz.

Gözəllikdən düşməz heç əsilzadə,
Günbəgün qaməti dönər şümşada,
Mehrü məhəbbəti olur ziyada,
Etibarı, etiqadı əksilməz.

Vaqif qoşmalarında mütəşabeh tərəf kimi çıxış edən ilahi eşq qəzəllərində, xüsusən də müxəmməslərində özünü bütün varlığı ilə, hətta klassik dönəm ədəbiyyatının ruhuna uyarlı tərzdə göstərir.

Mənbələrdə M.P.Vaqif əsasən yeni bir dövrün - poeziyaya nikbin əhvali-ruhiyyə, həyati və dünyəvi gözəlliyin təsviri və bu gözəlliyə pərəstiş hissləri qatan realist şeirin banisi kimi qeyd edilir.

Şair ədəbiyyatda yeni bir cığırı yaratmasından öncə şifahi xalq ədəbiyyatına, aşıq yaradıcılığına borcludur.

Şifahi xalq ədəbiyyatı və aşıq yaradıcılığından bəhrələnən Vaqif özündən sonra yazıb-yaradan aşıqlara da örnək olmuşdur.

Əsrlər keçsə belə həyatın enişli-yoxuşlu, acılı-şirinli axarı öz məcrası ilə davam edir. Həyatı özündə əks etdirən ədəbiyyat isə bütün hadisələrin bədii şahididir. Belə ki, XVIII əsrdə yaşamış Vaqif də, XIX-XX əsrlərin kəsişməsində yaşamış Ələsgər də dövrün haqsızlıqlarından eyni dərəcədə şikayətçidirlər. Vaqifin şikayətnaməsi Aşıq Ələsgər dövrünə qədər uzun bir yol keçmiş olsa da, həm məzmunu, həm də rədifi baxımından yaxınlıq təşkil edir:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,
Aşınalar ixtilatında sədaqət görmədim,
Biətü iqrarü imanü dəyanət görmədim,
Bivəfadan lacərəm təhsili-hacət görmədim.

Aşıq Ələsgərin "Görmədim" qoşması Vaqifə yazılmış nəzirə, əslində isə "tətəbbö"dür:

Bivəfanın, müxənnəsin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Bu ənənə XX əsr şairi Hüseyn Cavid yaradıcılığında da özünü göstərir.

Vaqif yaradıcılığının ən önəmli tərəfi, sözün geniş mənasında, gözəlliyin vəsfidir. Bəlkə şair bu gözəlliyin vurğunu olmasında doğulub boya-başa çatdığı, sonralar həyatını davam etdirdiyi vətənimizin dilbər guşələrinə borcludur.

Orta yüzilliklərdə, məlum olduğu kimi, yaşamın ağırlığı, ictimai-siyasi səbəblər bir sıra zəka sahiblərinin obasından-yurdundan didərgin düşməsinə səbəb olub. Bir qisim bəsirət gözlü şair və ziyalılar yaranmış olan səbəblər üzündən öz ölkələrində qəribçilik hissi ilə yaşayıb-yaratmışlar. Onların böyük dərdinin mayasında yurddaşlıq, vətəndaşlıq hissi dururdu.

Vaqif də yaşadığı dövrün ictimai-siyasi vəziyyətini öz yaradıcılığında əks etdirir. O, görkəmli, ağıllı dövlət adamı kimi Kür qırağının təbii imkanları və gözəllikləri ilə ictimai-siyasi vəziyyətdən doğan geriliyi duyur və bu mənzərəni özünəməxsus şəkildə, böyük ürəkağrısı ilə qələmə alır.

"Kür qırağının əcəb seyrəngahı var" şeirinə keçməzdən öncə bu məsələ ilə bağlı N.Cəfərovun Mirzə Yusif Qarabağinin yazdıqlarına əsasən qeyd etdiyi fikir üstündə dayanmaq istərdik:

İbrahim xan səfərlərinin birində, bəzi mülahizələrə görə, böyük bir qüvvə ilə Kür qırağında dayanmış imiş. Qoşun böyükləri bu tuli-mukənnətdən təngə gələrək Molla Pənah Vaqifdən rica edirlər ki, Qarabağa dönmək üçün bir əlac taparaq və hər nə tövr olur-olsun, İbrahim xana icrayi-nüfuz etsin. Vaqif isə aşağıdakı mürəbbei yazaraq xanəndələrə verir ki, məqamında İbrahim xanın hüzurunda təğənni etsinlər:

Siyah tel görmədim Kür qırağında ,
Məgər heç yaşılbaş olmaz bu yerdə?
Tərlan könlüm yenə uça dağlara
Havalanıb hərgiz qonmaz bu yerdə...

... Nədənsə, xanəndələr bu mürəbbei xanın məclisində oxurkən istənilən nəticə hasil olmur. Bunu eşidən Vaqif həman dəm bədahətən bu rəqsan və olduqca dilbər mənzuməni inşad edərək xanəndələrə verir ki, təkrar oxusunlar:

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Üzü tər cığalı siyah tellərin,
Hərdən tamaşası, hayıf ki, yoxdur!

Şair qeyd etdiyimiz qoşmasında onu düşündürən, narahat edən məsələni, şeirin mənasını daha qabarıq çatdırmaq üçün onu istifhəm (ritorik sual) üstündə yazaraq "siyah telin, yaşılbaş sonanın" Kür qırağında olmamasından təəssüflənir, bir növ zəmanəni, özünü belə bu baxımdan ittiham edir.

Onu da qeyd edək ki, ictimai-siyasi durumla bağlı yazılmış bu şeir təkcə təbiət təsviri, qadın gözəlliyinin tərənnümü deyil, eyni zamanda dövrün müəyyən tarixi hadisələrinin yaddaşlarda həkkinə xidmətdir - ədəbiyyata xidmətdir.

Şifahi xalq ədəbiyyatından bəhrələnən, eyni zamanda ədəbiyyatın hər iki qoluna - aşıq yaradıcılığı və klassik irsə önəm verən şair bu iki dönəmin ədəbiyyatları arasında körpü yaradaraq xalq yaradıcılığına məxsus özəllikləri, vəzni, xüsusilə də sadəlik və dilinin şirinliyini klassik ədəbiyyatın zənginlikləri ilə birləşdirərək ədəbiyyata bəlağətli bir üslub gətirmişdir.

***Mahirə QULİYEVA,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri***

● Səhnə xadimləri

# Könülsüz seçdiyi sənətlə könüllərdə qalan aktrisa

**Arzusunda olmadığı, məcburiyyət qarşısında qalaraq, istəmədən seçdiyi sənət onu tanıtdı, sevdirdi və Azərbaycan teatr, kino sənəti tarixində əbədi yaşamaq imkanı qazandırdı...**



Nəcibə Məlikova əsilli-köklü bəy qızı idi. Atası Haşım bəy Sağib hələ XX əsrin əvvəllərindən Bakıda maarifpərvər ziyalı kimi tanınırdı. Şair, jurnalist və publisist Haşım bəy Sağib "Yeni yol", "Maarif və mədəniyyət" və başqa qəzet və jurnallarda çıxış etmiş, Bakı şairlərinin əsərlərindən ibarət almanaxlarda şeirləri verilmiş, kitabları çap olunmuşdu. Bakının varlı adamlarından biri olan Haşım bəy Sağib həm də xeyriyyəçi idi.

Anası Xoşsima xanım da maarifpərvər qadın idi. Sovet hakimiyyəti illərində fəal komsomolçu olan Xoşsima xanım Azərbaycan sovet dövlət və partiya xadimi, publisist, alim, məsul vəzifələrdə çalışan Ruhulla Axundovun bacısı idi.

Haşım bəy Sağiblə Xoşsima xanımın sonbeşiyi olub Nəcibə Məlikova. O, 1921-ci il oktyabrın 25-də Bakının Buzovna kəndində dünyaya göz açıb. Dörd bacının ən kiçiyi olub.

## "Xalq düşməni"nin bacısı qızı

1930-cu illərdə sovet hökumətinin həyata keçirdiyi repressiya siyasəti onlara da dağ çəkib. 1931-ci ildə atası Haşım bəy qəflətən vəfat edib. Ancaq ailənin dərdi bununla bitməyib. Nəcibə Məlikovanın dayısı Ruhulla Axundov 1938-ci ilin yayında həbs olunub. Dayısı repressiya siyasətinin güdazına getdikdən sonra Nəcibə xanımgilin də qara günləri başlayıb. Bütün çətinliklərə, maneələrə baxmayaraq, həyatlarına davam edib, yaxşı təhsil almağa çalışıblar.

Nəcibə Məlikova uşaqlıqdan həkim olmaq istəyib. Amma Tibb İnstitutunda oxumaq arzusu "xalq düşməni"nin bacısı qızı olduğuna görə ürəyində qalıb.

Orta məktəbi bitirən Nəcibə Məlikova stenoqrafçı işləyib. Sonra sənədlərini Bakı Teatr Məktəbinə vermək məcburiyyətində qalıb. O zaman ağlına da gətirməyib ki, könülsüz təhsil almağa başladığı bu sənət onun taleyində böyük rol oynayacaq...

## Nəcibə Məlikovanın ilk və son məhəbbəti...

1940-1943-cü illərdə Bakı Teatr Məktəbində Xalq artisti Fatma Qədrinin sinfində oxuyub. Elə həmin illərdə aktrisalıq sənətinə bağlanıb. Məktəbi bitirdikdən sonra Gəncə Dövlət Dram Teatrında işləməyə gedib. Bu şəhəri onun həyatında unudulmaz edən yalnız teatr sənətində atdığı ilk addımlar olmayıb. Nəcibə Məlikova Gəncə şəhərində həm də öz ilk və son məhəbbəti ilə qarşılaşıb...

Gəncənin tanınmış adamlarından olan Nəsrəddin Həsənovu elə teatrda tanıyıb. Nəsrəddin də aktrisanı tamaşaların birində görüb, aşiq olub. Nəcibə xanım onunla ailə qurmağa razılıq verib. Bu evlilikdən bir oğlu dünyaya gəlib.

Bir gün isə Nəsrəddin ona başqası ilə evləndiyini söyləyib. Nəcibə xanım ona heç bir söz demədən oğlunu da götürüb Bakıya qayıdıb. Həyat yoldaşı çox keçmədən, otuz yaşında faciəli şəkildə dünyasını dəyişib.

İyirmi doqquz yaşlı Nəcibə Məlikova isə bundan sonra bir daha ailə qurmayıb. Bütün həyatını sənətinə həsr edib.

## Tənhalığı sevməyən, sözün düzünü üzə deyən, ötkəm adam...

Hələ Bakı Teatr Məktəbində təhsil aldığı illərdə Akademik Milli Dram Teatrının tamaşalarında kiçik rollar oynayan aktrisa 1952-ci ildən film çəkilişləri ilə əlaqədar kiçik fasilələrlə bu teatrda işləyib. Akademik Milli Dram Teatrında ilk rolu K.Qoldoninin "Mehmanxana sahibəsi" komediyasında Mirandolina olub. "Şeyx Sənan"da Xumar, "Səyavuş"da Firəngiz, "Pəri cadu"da Şamama cadu, "Aydın"da Böyükxanım, "1905-ci ildə"də Sona, "Sevil"də Edilya, "Həyat"da Atlas, "Kəndçi qızı"nda Ayxanım, "Büllur sarayda"da Qönçə, "Qəribə oğlan"da Məlahət, "Əks-səda"da Zərifə, "Mirzə Şəfi Vazeh"də Zübeydə, "Vaqif"də Xuraman, "Əliqulu evlənir"də Yasəmən, "Küləklər"də Firuzə, "Əcəb işə düşdük"də Məlahət, "Lənkəran xanının vəziri"ndə Şölə xanım və Ziba xanım, "Müsyö Jordan və dərviş Məstəli şah"da Şəhrəbanı, "Cehizsiz qız"da Oqudalova, "Kimdir müqəssir?"də Korinkina, "Zikovlar"da Sofiya İvanovna, "Türkiyədə"də Nazir qızı, "Məzəli hadisə"də Marianna, "Namus"da Süsənbər, "Orlean qızı"nda Aqnessa, "Sevilya ulduzu"nda Estrelya olub.

Nəcibə Məlikovanı geniş tamaşaçı kütləsinə isə filmlərdə oynadığı rollar tanıdıb. O, "Ögey ana"da Dilarə, "Aygün"də Aygün, "Arşın mal alan"da Cahan xala, "Əhməd haradadır?"da Nərgiz xala rolları ilə tamaşaçıların sevgisini qazanıb.

İstəmədiyi, ürəyincə olmayan rollara çəkilməyə razılıq verməzmiş. Həyatda da belə imiş. Ötkəm, sözün düzünü üzə deyən Nəcibə Məlikovanın sevənləri kimi, sevməyənləri də olub. Yaradıcı adamlar arasında olan qısqanclıqdan o da az çəkməyib. Ancaq buna görə nə xasiyyətini dəyişib, nə də güzəştə gedib.

O, iyirmi yeddi il şəkər xəstəliyindən əziyyət çəkib. Bu illər ərzində həkimlərin bütün məsləhətinə əməl edib. Amma düçar olduğu xəstəlik onu bu həyatdan qoparıb. Nəcibə Məlikova yetmiş bir yaşında, 1992-ci il iyulun 27-də dünyasını dəyişib. İkinci Fəxri xiyabanda dəfn olunub.

İstedadlı aktrisa 1959-cu ildə respublikanın Əməkdar artisti, 1974-cü ildə Xalq artisti fəxri adlarına layiq görüldü. Həyatda çox vəfasızlıqlarla, göründüyü kimi olmayanlarla qarşılaşdı. Ancaq illərini sərf etdiyi, ürəyinin hərarətini verdiyi sənətdən həmişə etibar gördü. Aktrisalıq sənəti Nəcibə Məlikovanı dünyada olmayanda da sevdirdi, onu yaddaşlarda saxladı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● İstedadlarımız

# Ulduzlu gecələrin rəngli nağılları

## Tanınmış xalçaçı-rəssam Ulduz Səmədova Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Qızıl medal"ına layiq görülüb

**Nağılabənzər həyatı, qabiliyyəti, istedadı haqqında çoxdan yazmalı olduğum, musiqinin, xüsusən də aşıq sənətinin bilicisi, bir vaxtlar Kəlbəcərdə mahir qarmon ifaçısı kimi tanınan Ulduz Səmədova ilə illərdən sonrakı görüşümüzü o, ziyarət kimi dəyərləndirdi. 1993-cü ildən sığındığı, daha doğrusu, müvəqqəti məskunlaşdığı ünvan paytaxt Bakının Binəqədi rayonu ərazisində fəaliyyət göstərən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Əlillərin Bərpa Mərkəzinin yataqxanasıdır.**



Ulduz Səmədova Azərbaycanın dilbər guşələrindən biri olan, 27 il Ermənistanın təcavüzkar siyasətlə işğalda saxladığı Kəlbəcər rayonunun Qamışlı kəndində, ustad ozan, aşıq Gərayın ailəsində dünyaya göz açıb. Demək olar ki, bu ailə bütövlükdə istedadlıları ilə hələ Kəlbəcərdə ikən tanınırdı. Atası, Dədə Şəmşirin şəyirdlərindən olan, bir neçə məşhur aşıq havalarının müəllifi Gəray Səmədov o zamanlar Moskvada keçirilən ittifaq miqyaslı Azərbaycan Aşıqlarının III Qurultayının iştirakçısı idi...

Ulduz Səmədova Bakı Mədəni-Maarif Texnikumunu (hazırkı Bakı Humanitar Kolleci) bitirdikdən sonra M.A.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini 3-cü kursa kimi oxuyub. Sonralar Azərbaycan Dövlət Neft Akademiyasını da bitirib.

...Tale yollarına yazılandan qaçmaq mümkün olmur. Ulduz xanımın da ömrünə, taleyinə yazılanlar ürəkaçan olmayıb. Gəncliyinin odlu-alovlu illərində ermənilərin məkrli planları nəticəsində şikəstlik qazanan Ulduz Səmədova ömürlük əlil arabasına möhtac olub: I qrup əlildir. Hərəkətində yaranan məhdudiyyətlər onu həmyaşıdlarından aralı, səhnədən, konsert salonlarından uzaq salıb. Lakin həmişə pozitivliyi ilə çoxlarına nümunə olan Ulduzun həyata baxışları dəyişib. O, ömür-gününü, sevgi-məhəbbətini qədim el sənəti olan xalçaçılığa həsr edib. İndi əlil arabası ona anası, bacıları qədər doğmadır: hərəkətə gətirir, həyatını davam etdirir. Bir vaxtlar şirmayı dilli qarmonda muğam-segah, xalq və bəstəkar mahnılarını, milli rəqslərimizi peşəkar səviyyədə ifa edən Ulduz Səmədova indi mehrini xalçaya salıb.

1995-ci ildən xalı-xalça toxumaqla məşğul olan Ulduzda rəssamlıq qabiliyyəti də özünü göstərib. Tanınmış xalça ustası, Xalq rəssamı Kamil Əliyevdən bu ecazkar sənətin sirlərini öyrənən Ulduz xanımın əl işləri müxtəlif sərgilərdə uğurla nümayiş etdirilib. Toxuduğu xalçalarda milli ruhu qoruyaraq, incə ornamentlərdən, zərif və nəfis naxışlardan istifadə edərək, Azərbaycan xalqının qədim mədəniyyətini və incəsənətini ilmələrində qoruyab saxlayan sənət əsərləri yaradır. O, hərəkət məhdudiyyətli olmasına baxmayaraq, bir çox uğurlara imza atıb: 2007-ci ildə Heydər Əliyev Fondunun təqdimatı ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən yüksək naliliyyətlərinə görə "Qızıl medal"la təltif edilib. 2015-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin keçirdiyi IX Ümumrespublika Yaradıcılıq Müsabiqəsində iştirak edən Ulduz xanım xalça sənəti nümunəsi üzrə birinci yerin sahibi olaraq mükafat və diploma layiq görülüb.

Burada yazıya nöqtə qoymağı da özü xahiş edib. Deyir ki, bundan sonra yaz ki, cənab Ali Baş Komandana həyatımızı borcluyuq, çünki Qarabağ dərdi kimi bir yaranı sinəmizdən sağaltdı, məlhəm etdi! Düşmənin layiq olduğu cavabı "dəmir yumruq"la verdi. O yumruqda xalq-hakimiyyət-ordu üçlüyünün biləkləri qovuşmuşdu: "...Qarabağımızı, o cümlədən Şuşamızı, eləcə də doğulduğum Kəlbəcərimizi düşmən tapdağından xilas edən Ali Baş Komandanımıza həm də ona görə minnətdaram ki, Zəfərlərə layiq olan xalqımızı bir amal uğrunda mübarizəyə hazırladı. Kəlbəcərə dönüşümüzə az qalıb. Bu gün yalnız Kəlbəcər təbiətini deyil, ilk növbədə qalibiyyət bayrağımızı ucaldan Prezidentimizin və hər addımda onunla yanaşı addımlayan, xalqımızın mehriban qızı - Birinci vitse-prezident Mehriban xanım Əliyevanın portretlərini xalçaya toxuyandan duyurdum ki, biz doğma torpaqlarımıza qayıdacağıq. Qayıdışımıza görə mən də Zəfər yazanlara təşəkkür edir, öz sənətimlə bunu tarixləşdirirəm..."

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Aşıq Ələsgər - 200

# Əsrin saz dühası - Ələsgərin söz dünyası

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Sabunçu rayon MKS-nin 12 saylı filialı şəhid Əvəz Paşayev adına Mədəniyyət Evi ilə birgə ustad Aşıq Ələsgərin 200 illiyinə həsr edilən "Ələsgərin söz dünyası" adlı tədbir keçirib.**



Filialın müdiri Vəsilə Məmmədova çıxışında bildirib ki, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində dünyaya göz açan Aşıq Ələsgərin ustadlığa qədər keçib gəldiyi yol uzun və məşəqqətlərlə dolu olub: "Aşıq Ələsgər Göyçədən qaçqın düşərək 1918-1921-ci illərdə ailəsi ilə birlikdə Kəlbəcərin Qanlıkənd yaşayış məntəqəsində məskunlaşmış, doğma ellərə qayıtdıqdan beş il sonra (1926-cı ildə) vəfat etmişdir. Doğulduğu Ağkilsə kəndinin qəbiristanlığında dəfn edilmiş ustadın ziyarətə çevrilmiş qəbirüstü abidəsi təəssüf ki, 1988-ci ildən sonra daşnak vandalları tərəfindən dağıdılmışdır..."

***"Azərbaycan"***

● Nizami Gəncəvi - 880

# "Xeyir və Şər" uşaq tamaşası təqdim edilib

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə respublikada noyabr ayının 15-dən start götürmüş Nizami Gəncəvi Beynəlxalq Festivalı çərçivəsində keçirilən silsilə tədbirlər davam edir.**



Gəncə Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Gəncə Dövlət Kukla Teatrının aktyorlarının Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından hazırladıqları "Xeyir və Şər" tamaşası təqdim edilib.

Tamaşanın quruluşçu rejissoru Gəncə Dövlət Kukla Teatrının direktoru, Əməkdar artist Fərmail Paşayev, quruluşçu rəssamı Fəxri mədəniyyət işçisi Əntiqə Bədirovadır.

# "Nizami" baleti yenidən Opera və Balet Teatrının səhnəsində

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında görkəmli bəstəkar Fikrət Əmirovun "Nizami" baleti "Nizami Gəncəvi ili" çərçivəsində yenidən səhnəyə qoyulub.**



Baletdə Nizaminin həyatının üç məqamı - şair və hakimiyyət, şair və məhəbbət, şair və ilham pərisi təsvir olunur.

...Səhnədə dünyanın bütün ağrı-acısını dadmış, həyatda həm sevinc, həm kədər yaşamış, poetik dilin sehrini anlamış, ən gözəl əsərlərin yaradılışı üçün ona ilham verən sevgini duymuş ağsaçlı şair görünür. Məşhur "Xəmsə"də vəsf etdiyi qəhrəmanlar onun gözləri önündən cərgə ilə ötüb keçirlər. Ölməz poemaların qəhrəmanları - Leyli və Məcnun, Xosrov və Şirin, Bəhram və Yeddi gözəl, İskəndər... rəqslərdə canlanırlar. Nə qədər ki Yer üzərində məhəbbət, sədaqət, inam mövcuddur, nə qədər ki böyük Nizaminin poeziyası yaşayır, onun yaratdığı qəhrəmanlar da əbədi yaşayacaq və var olacaqlar.

Tamaşanın musiqi rəhbəri və dirijoru, Əməkdar artist Əyyub Quliyev, libretto müəllifi Əjdər Ulduz, balet truppasının bədii rəhbəri Xalq artisti Kamilla Hüseynova, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Tehran Babayevdir.

***"Azərbaycan"***

# Tatarıstan Respublikası "Şəbəkələr kompaniyası"nın baş direktoru "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzi ilə tanış olub

İlşad Fardiyev və onun rəhbərlik etdiyi nümayəndə heyətinə bu idarəetmə mərkəzi haqqında, həmçinin "Azərişıq" ASC tərəfindən ölkədə, eləcə də işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı tikinti, yenidənqurma və təmir işləri barədə geniş məlumat verilib.

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, qonaqlar yarımstansiyada quraşdırılan müasir qapalı paylayıcı qurğular və digər zəruri avadanlıqlarla tanış olublar. Nümayəndə heyətinə bildirilib ki, bu yarımstansiya vasitəsilə Şamaxı rayonunun 11, Ağsu rayonunun isə 5 yaşayış məntəqəsinin fasiləsiz və dayanıqlı elektrik təchizatı təmin olunub. 10 mindən çox abonentin elektrik enerjisi təminatı daha da yaxşılaşdırılıb.

Qeyd edilib ki, qurulan sistem vasitəsilə Şimal-Qərb Regional İdarəetmə Mərkəzinə daxil olan 7 şəbəkə üzrə onlayn informasiyaları və operativ məlumatları həm bu idarəetmə mərkəzinə, həm də Bakıdakı Mərkəzi Dispetçer Xidmətinə ötürmək mümkündür. SCADA İdarəetmə Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olan İlşad Fardiyev Azərbaycanda müasirləşdirilən elektrik şəbəkəsinin imkanlarını yüksək qiymətləndirib.

Daha sonra Tatarıstandan gələn nümayəndə heyəti ilə yerli mütəxəssislər arasında fikir mübadiləsi aparılıb. İki ölkənin elektrik şəbəkəsində qurulan yeni sistemlər barədə qarşılıqlı müzakirələr aparılıb.


"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
"Dənizçi" MTK-nin 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarının elektrik təchizatı sisteminin qurulması xidmətinin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1171**

***Tender komissiyası***



# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Ermənistan müstəqil siyasət yürütmək niyyətində deyil

Ermənistanda ictimai-siyasi müstəvidə baş verən son proseslər getdikcə daha çox diqqət cəlb etməkdədir. Xüsusən də Zəngəzur dəhlizinin açılması istiqamətində aparılan müzakirələr ətrafında maraqlı diskussiyalar gedir. Azərbaycan və Ermənistan sərhədində düşmən təxribatı ucbatından baş verən qarşıdurmadan sonra İrəvanın hakim dairələrində güclü anti-Rusiya meyilləri müşahidə edildi, KTMT-dən və Avrasiya İttifaqından çıxmaq çağırışları gücləndi.

Rusiya Elmlər Akademiyasının Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun Qafqaz üzrə aparıcı elmi əməkdaşı Vadim Muxanov deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan indi çarəsiz durumdadır: "Çarəsiz Paşinyan ümidini Moskvaya bağlayıb. Baş nazirin və erməni isteblişmentinin Moskvadan incikliyi var, onlar bunu beynəlxalq platformalarda gizlətmirlər. Bu isə Rusiyanın hərbi iştirakına, bizim regiondakı nüfuzumuza zərbədir. "Şərq Tərəfdaşlığı" sammiti ilə bağlı əhvalat Kremlə siqnaldır və İrəvanın uzunmüddətli perspektivdə Qərbə tərəf üz döndərməsi təhdidi mövcuddur".

Erməni politoloq Manvel Arminyan da pessimistdir. O, qeyd edir ki, Azərbaycan istəyinə hər zaman nail olmaq gücündədir: "Azərbaycanlılar öz proqramlarını əvvəl minimum həyata keçirdilər. Yəni Qarabağı azad etdilər. İndi isə onların qarşısında maksimum proqramı həyata keçirmək durur". O bildirib ki, indi Azərbaycanın qarşısında dayanan maksimum məsələ Zəngəzuru, Basarkeçəri, İrəvanı, Qarakilsəni və digər əraziləri azad etməkdir: "Hazırda Azərbaycanda növbəti nəsil buna hazırlanır. Çünki bilirlər ki, xoşluqla heç kim bu əraziləri onlara qaytarmayacaq. Əgər onlar Qarabağı azad ediblərsə, onda niyə sadaladığım torpaqları da geri qaytarmasınlar".

Hadisələrin inkişaf axarı Azərbaycanın Ermənistanla münasibətləri bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət əsasında normallaşdırmaqdan, iki ölkə arasında sülh müqaviləsinin imzalanması və sərhədlərin delimitasiya və demarkasiyası barəsində təkliflərinin İrəvanın qəbul etməkdən başqa yolunun olmadığını göstərir. Hesab edilir ki, bu, Rusiyanın da maraq dairəsindədir.

Bu arada son bir il ərzində Ermənistanda ərzaq məhsullarının, daşınan və daşınmaz əmlakın, yanacağın, müxtəlif xidmətlərin qiyməti də xeyli artıb. Təkcə son iki ay ərzində Ermənistanda ərzağın qiyməti xeyli bahalaşıb. 12 aylıq inflyasiya da yüksək olaraq qalır - 8,8 faiz. Həmin göstərici ərzaq məhsulları üzrə isə 15,1 faizdir. Ötən ilin noyabrına nisbətən tərəvəz 66,4 faiz, şəkər 35 faiz, bitki və kərə yağları 30 faiz, ət və ət məhsulları 10 faiz, süd məhsulları və yumurta 12 faiz yüksəlib. Qeyd edək ki, Azərbaycanın işğal edilmiş ərazilərindən Ermənistana daşınan mal-qaranın hesabına ölkədə ətin qiyməti sabit qalırdı. Bunu ermənilərin özləri də etiraf edirlər. İndi isə bu mümkün olmadığından Ermənistanda ət də bahalaşıb.

Ermənistanda daşınmaz əmlakın qiymətləri də ötənilki pik həddini keçib. 2020-ci ildə böhran və lokdauna baxmayaraq, mənzillərin qiyməti ilin sonuna qədər artmaqda davam etdi. Bu il isə qiymətlər yenidən artıb və demək olar ki, ötənilki səviyyəni ötüb. Bununla belə, ölkədə uzunmüddətli tikinti fəallığı azalır. 2020-ci ilin eyni dövrü ilə müqayisədə 2021-ci ilin ikinci yarısında İrəvanda torpaq sahələrinin satışı 20 faizə yaxın azalıb.

"Qraparak" qəzeti yazır ki, Ermənistan silahlı qüvvələrinin baş qərargahının rəisi Artak Davtyan yaxın günlərdə vəzifəsindən azad olunacaq. Mümkün namizədlərin siyahısında ən inanılmaz adlar çəkilir. Onların arasında hakimiyyətin ən sərt tənqidçilərindən biri olan, amma Suren Papikyanın təyinatından müsbət danışan generalın adı da hallanır: "Ermənistanda belə metamorfozlar normaldır. Mənbələrimizə görə, Artak Davtyanın dəyişməsi keçmiş müdafiə naziri David Tonoyan və silah tədarükçüsü şirkətinin direktoru David Qalstyanın (Patron Davo) da adları hallanan silah tədarükü ilə bağlı məlum cinayət işi ilə əlaqədardır. Davtyana artıq ittiham irəli sürülüb".

Göründüyü kimi, baş verən proseslər Ermənistanın daha böyük problemlər içərisinə sürükləndiyini və ölkənin məhvinin qaçılmaz olduğunu göstərir. Əslində, bu o qədər də təəccüblü deyil. Çünki Ermənistan elə bir vəziyyətə düşüb ki, onun gələcək taleyi kənarda həll olunur. Ermənistanın hərbi-siyasi rəhbərliyinin isə prosesə təsir göstərmək imkanları, demək olar ki, yoxdur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

● DÜNYA GÜNDƏMİ



# «Təhlükə hələ sovuşmayıb»

## Ümumdünya Səhiyyə Təşkilatı növbəti dəfə dünya ölkələrinə xəbərdarlıq etdi

Avropada hazırkı epidemioloji tendensiyaların qorunub-saxlanması 2022-ci ilin yazında yeni tipli koronavirusla bağlı yaranan fəsadlardan daha yarım milyon insanın həyatına son qoya bilər. Bu barədə məlumat verən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa bölməsinin icraçı direktoru Robb Batlerin dediyinə görə, ölüm hallarının sayı artıq 1,5 milyon rəqəmini aşıb: "Əgər biz əvvəlki xətti davam etdirsək, gələn ilin yazında daha 500 min ölüm proqnozlaşdıra bilərik".

O, qeyd edib ki, ÜST-ün Avropa bölməsinin məsuliyyətinə aid 53 ölkənin əhalisinin yalnız 54 faizi peyvənd olunub. İndi region çətin qış mövsümünə hazırlaşmalıdır. Batler COVID-19 xəstəliyinin artmasının virusun qarşısında zəif olan çox sayda insanın olması və xüsusilə peyvənddən 30 həftə sonra əvvəllər aşılanmış əhali tərəfindən vaksinasiya nəticəsində əldə edilən immunitetin tədricən zəifləməsi ilə izah edib. Vəziyyətin pisləşməsi riski ilə bağlı digər amillər arasında qış mövsümü və insanların evlərdə, qapalı məkanlarda qalması da var.

ÜST-ün Avropa regionunun sakinlərinin yalnız 48 faizi tibbi maskalar daşıyır, lakin əgər bu praktikanı genişləndirsək, xəstəliklərin və ölüm hallarının azaldılmasına nail olmaq mümkündür.

Hesablamalara görə, maskalardan ümumi istifadə 95 faiz olsaydı, 160 min insan koronavirusdan xilas edilərdi.

### Uşaqların immunlaşdırılması

Mövcud statistikaya görə, 15 yaşına çatmamış uşaqlar koronavirusdan ölənlərin yalnız 0,1 faizini, 15 yaşdan 24 yaşa qədər olan gənclər isə 0,4 faizini təşkil edirlər.

ÜST-ün bəyanatında bildirilir ki, COVID-19-un ağır formaları ilə bağlı əsas yükü daha yaşlı insanlar və xroniki xəstəlikləri olan adamlar daşıyırlar. Ümumilikdə, onlarla müqayisədə uşaqlarda və yeniyetmələrdə infeksiya əlamətləri və onun ağır fəsadları və ya ölümlə nəticələnməsi halları daha az müşahidə olunur.

ÜST espertləri hesab edirlər ki, indiki mərhələdə uşaqları COVID-19-dan immunlaşdırma kampaniyasına başlamaq qərarını konkret vəziyyətə əsaslanaraq hər bir ölkənin hökuməti qəbul etməlidir.

### Avropa yenə pandemiyanın episentridir

Ötən həftə COVID-19-a yoluxma hallarının 60 faizi Avropanın payına düşüb. Bu barədə İsveçrənin Cenevrə şəhərində keçirilən brifinqdə ÜST-ün Baş direktoru Tedros Gebreyesus məlumat verib. Onun sözlərinə görə, pandemiya üzərində tam qələbə haqda bu gün heç bir ölkə raport verə bilməz. Narahatlıq doğuran odur ki, çox ölkədə və icmalarda vaksinlərin xəstəliyin qarşısını tamamilə alacağı və peyvəndlənmiş insanların profilaktik tədbirlər görməsinin vacib olmadığı ilə bağlı yanlış təhlükəsizlik hissi müşahidə olunur. Əgər siz peyvənd almısınızsa, xəstəliyi ağır keçiricəyiniz ehtimalı çox azdır, amma siz hələ də yoluxa və başqalarını yoluxdura bilərsiniz. Peyvəndlər həyatı xilas edir, lakin onlar infeksiyanın ötürülməsinin qarşısını tamamilə ala bilmir.

Gebreyesus bildirib ki, mövcud məlumatlara görə, koronavirusun "Delta" variantının ortaya çıxmasından əvvəl vaksinlər xəstəliyin yayılmasını 60 faiz azaldırdı, indi isə bu göstərici 40 faizə düşüb: "Əgər peyvəndi alsanız, xəstəliyin ağır gedişi sizi daha az təhdid edər, lakin siz hələ də yoluxma və başqalarını yoluxdurma riski ilə qarşılaşırsınız".

Sağalmış və peyvənd almış adamlarda əmələ gələn anticisimlər ilkin virusa qarşı effektiv olsa da, onun mutasiyalarına qarşı zəif hərəkət edirlər. Bu hal "İmmune Escape" - immun qaçışı adlanır. Bu, faktiki olaraq virusun insanın immun sistemi tərəfindən aşkar olunmasından qaçmaq qabiliyyətidir. Yekunda həm vaksin almış, həm də xəstəliyi keçirmiş adamlar yenidən yoluxa bilərlər.

ÜST-ün rəhbəri insanları infeksiyadan və infeksiyanın başqalarına ötürülməsindən qaçmağa kömək edən ehtiyat tədbirlərindən imtina etməməyə, maska taxmağa, əlləri yumağa, məsafə saxlamağa və adamların kütləvi toplaşdığı yerlərə getməməyə çağırıb.

Beləliklə, daha çox ehtimal olunur ki, təhlükəli mutasiyalar məhz virusun maneəsiz və sürətlə yayıla biləcəyi yerlərdə əmələ gəlir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***







# Noyabrın 26-da Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək

Azərbaycanda noyabrın 26-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Cənub küləyi əsəcək. Havanın temperaturu gecə 6-8°, gündüz 10-13° isti olacaq. Bakıda gecə 6-8°, gündüz 11-13° isti olacaq.

Atmosfer təzyiqi 773 millimetr civə sütunundan 767 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 26-da Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir. Bu, meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında arabir yağış yağacağı gözlənilir. Yağışın bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 8-12° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 2-7° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək, lakin axşam arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən və Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək, lakin axşam yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 0-5° şaxta, gündüz 2-7° isti olacaq.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 0-5° şaxta, gündüz 2-7° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 0-4°, gündüz 5-9° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış yağacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 0-4°, gündüz 4-8° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 0-4° isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında əsasən yağmursuz keçəcək, lakin bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 2-6°, gündüz 8-12° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astarara yonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 3-6°, gündüz 8-11° isti, dağlarda gecə 0-3°, gündüz 5-7° isti olacaq.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu professor Vəkil Həsənova anası

**HƏCƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5590
Sifariş 2404
Qiyməti 40 qəpik